# Xalq qəzeti

Xalqın qəzeti!

№ 233 (30349) 25 oktyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Türkiyə – Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!**

## Azərbaycan – Türkiyə hərbi əməkdaşlığı bölgədə əmin-amanlığın qarantıdır

### Prezident İlham Əliyev Türkiyənin Milli Müdafiə nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Yaşar Güləri qəbul edib.**

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Bu baxımdan, ölkəmizin müxtəlif yerlərində "Mustafa Kamal Atatürk – 2023" Azərbaycan–Türkiyə birgə taktiki təliminin keçirilməsindən, təlim zamanı yüksək peşəkarlığın və bacarığın nümayiş etdirilməsindən məmnunluq ifadə olundu.

Türkiyə Respublikasının Milli Müdafiə naziri bu təlimlərin Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğuladı.

Söhbət zamanı Azərbaycanın və Türkiyənin dövlət başçılarının mütəmadi görüşlərinin və təmaslarının münasibətlərimizin inkişafında rolu qeyd olunaraq, bu ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfərinin əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanın ötən ay həyata keçirdiyi antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunduğu xüsusi qeyd edildi.

Söhbət zamanı Yaşar Gülərin Azərbaycana səfərinin əlaqələrimizin inkişafına, o cümlədən, hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət etdiyi bildirildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## "Taktiki savaş"da şərti düşmən məhv edildi

*"Mustafa Kamal Atatürk – 2023" birgə hərbi təlimində*

**Bakıda, Naxçıvanda və azad olunmuş ərazilər də daxil olmaqla ölkəmizin müxtəlif istiqamətlərində keçirilən Azərbaycan–Türkiyə birgə taktiki təlimi başa çatıb. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunan "Mustafa Kamal Atatürk–2023" birgə taktiki təlimi uğurla icra olunub.**



Təlimə 3 minədək şəxsi heyət, 130 zirehli texnika, 100-dək artilleriya qurğusu, 20-dən artıq aviasiya və uçuş vasitələri, eləcə də mühəndis texnikası və kiçik hava yastıqlı qayıqlar cəlb olunmuşdu. Oktyabrın 24-də "Yüksək səviyyəli müşahidəçi günü" keçirildi.

Azərbaycan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə Türkiyəni Milli Müdafiə naziri Yaşar Güler, Tacikistanın Müdafiə naziri general-polkovnik Şerali Mirzo, Qazaxıstanın Müdafiə Nazirliyinin Hərbi Təhsil və Elm Departamentinin rəisi general-mayor Jumabek Axmetov və Özbəkistanın Müdafiə nazirinin döyüş hazırlığı üzrə müavini polkovnik Kadirjon Tursunovun rəhbərlik etdiyi nümayəndə heyətləri, eləcə də Türkiyənin müdafiə sənayesi sahəsində çalışan bir neçə şirkət rəhbəri və təmsilçiləri "Mustafa Kamal Atatürk–2023" birgə taktiki təliminin "Yüksək səviyyəli müşahidəçi günü"ndə iştirak edirdilər.

Təlimdə təmas xəttində yerləşən mövqelərin düşməndən azad olunması və birliklərin irəliləməsi üçün Azərbaycan və Türkiyə komando bölükləri birgə sızma fəaliyyətlərini icra etdilər.

*(ardı 9-cu səhifədə)*

## "3+3"dən gözləntilər



**Bu regional layihənin 2021-ci ildə Moskvada keçirilən ilk toplantısından başlayaraq platformanın perspektivi, gətirəcəyi dividendlər, gələcək aqibəti ətrafında diskussiyalar səngimək bilmir. Mövzulardan biri də "3+3"ün Türkiyənin bölgədəki nüfuzunu daha da artıracağı ilə bağlı kənar güclərin əndişələnməsi ilə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən, region ölkələri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutan "3+3" formatı son zamanlar təkcə yerli ekspertlərin deyil, beynəlxalq ictimaiyyətin də diqqət mərkəzindədir. Söhbət Cənubi Qafqazda 6 oyunçunun iştirakını nəzərdə tutan yeni əməkdaşlıq formulundan gedir: bir tərəfdən Rusiya, İran, Türkiyə, digər tərəfdən isə Azərbaycan, Gürcüstan və Ermənistan.**

*(ardı 4-cü səhifədə)*

## Sülh, yoxsa müharibə?

*Fransa regionda birincinin yox, ikincinin toxumlarını səpir*

**Ötən əsrin 80-ci illərinin sonlarında ermənilərı Qarabağda etnik separatizmə, vətəndaşı olduqları dövlətə qarşı çıxmağa, sonra isə silahlı münaqişəyə təhrik edən bəzi ölkələr və onların göstərişi ilə, necə deyərlər, oturub-duran siyasi dairələr bu gün də öz əməllərindən əl çəkmirlər. Belə ölkələrin başında regiondan min kilometrlərlə uzaqda yerləşən Fransa dayanır.**



Ermənilərin Qarabağda separatizmə başlamasına rəvac verən, onları buna səsləyən ilk hadisə məhz Fransada baş verib. Belə ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan ayrılaraq, Ermənistana verilməsi məsələsini Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, SSRİ Elmlər Akademiyasının akademiki Abel Aqanbekyan ilk dəfə 1987-ci il noyabrın 18-də Fransa Kommunist Partiyasının orqanı olan və erməni diasporuna xüsusi simpatiyası ilə seçilən "Humanite" qəzetinə müsahibəsi zamanı qaldırıb. Həmin müsahibə erməni millətçiləri üçün "start düyməsi" rolunu oynayıb. Müsahibənin dərc olunmasından heç üç ay keçməmiş – 1988-ci il fevralın 13-də Xankəndi şəhərinin mərkəzi meydanında İrəvandan gəlmiş millətçilərin iştirakı ilə Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana verilməsi ("miatsum") tələbi ilə ilk icazəsiz mitinq təşkil olunmuşdur.

*(ardı 6-cı səhifədə)*

## Lavrovun "real delimitasiya" məntiqi

**Tehranda Cənubi Qafqaz üzrə "3+3" formatı çərçivəsində Azərbaycanın, Türkiyənin, Rusiyanın, İranın və Ermənistanın xarici işlər nazirlərinin görüşü başa çatdı. Əlbəttə, gözləmək mümkün idi ki, Ermənistan bu formatda iştirak etməyəcək. Üzünü tamamilə Qərbə çevirmiş bu ölkənin aktiv fazada Azərbaycan və Rusiya ilə, nisbətən passiv fazada isə Türkiyə ilə gərginliyi var.**

*(ardı 4-cü səhifədə)*

## Xarici investisiyalara "yaşıl işıq" yandırılıb

**Azərbaycanda qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və bu sahədə istehsal edilən məhsulların ixrac potensialının gücləndirilməsi üçün qarşıya qoyulan mühüm vəzifələrdən biri xarici investisiyaların artırılmasına nail olmaqdır. Buna görə də son illərdə respublikamızda biznes mühitinin keyfiyyətcə yaxşılaşdırılması və ölkəyə xarici sərmayədarların cəlb edilməsi diqqət mərkəzində saxlanılır.**



Bu strateji istiqamətin önəmi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və bir sıra dövlət proqramlarında vurğulanır, biznes fəaliyyətinin beynəlxalq normalar əsasında formalaşması, habelə özəl sektorun inkişaf tempinin yüksəldilməsi məqsədilə yeni stimulların tətbiqi, iqtisadi islahatların davam etdirilməsinin zəruriliyi göstərilir.

*(ardı 7-ci səhifədə)*

# Prezident İlham Əliyev Latviyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Edqars Skuyanın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin zəngin tarixə malik olduğunu qeyd edərək, qarşılıqlı təmasların, xüsusilə dövlət başçılarının səfərlərinin əməkdaşlığımızın genişlənməsi işinə verdiyi töhfəni vurğuladı.

Dövlətimizin başçısı iqtisadi əlaqələrə toxunaraq, ticarət, investisiya və digər sahələrdə daha geniş imkanların müəyyənləşdirilməsinin vacibliyini bildirdi.

Azərbaycan Prezidenti ölkələrimizin müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda, parlamentlərarası əməkdaşlığın da əlaqələrimizin möhkəmlənməsində roluna toxundu, xalqlar arasında təmasların əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyi qeyd edən səfir Azərbaycanın gözəlliyinin və burada gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi.

Edqars Skuya dövlətimizin başçısına Latviya Prezidentinin ölkəsinə rəsmi səfərlə bağlı dəvətini çatdırdı.

Prezident İlham Əliyev dəvəti minnətdarlıqla qəbul etdi.

Görüşdə Azərbaycan ilə Latviyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edildi, Latviyanın ölkəmizdəki səfirliyinin NATO-nun Azərbaycanda əlaqələndirici funksiyasını yerinə yetirməsindən məmnunluq ifadə olundu, Azərbaycan ilə NATO arasında əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı. Həmçinin Azərbaycanın həm NATO, həm də Avropa İttifaqı ilə əlaqələrinin inkişafında üzv dövlət olaraq Latviyanın verdiyi dəstək yüksək qiymətləndirildi.

# Azərbaycan–İsveçrə: əməkdaşlıqda yeni istiqamətlər yaranır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Ştelin etimadnaməsini qəbul edib.**



Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin istər siyasi, istərsə də iqtisadi sahələrdə uğurla inkişaf etdiyini bildirərək, özünün Dünya İqtisadi Forumuna səfərləri zamanı İsveçrənin dövlət başçıları ilə mütəmadi görüşlərinin əməkdaşlığın müzakirəsi baxımından önəmini qeyd etdi.

Ticarət, iqtisadiyyat, energetika sahələrində əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev İsveçrə şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinə toxundu, onların işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma layihələri ilə bağlı fəal işlədiklərini vurğuladı və bu istiqamətdə yaxşı əməkdaşlığın olduğunu bildirdi.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə insanların rahat yaşaması üçün müasir texnologiya, yaşıl enerji, "ağıllı kənd" konsepsiyalarının həyata keçirildiyini deyərək, bunların əməkdaşlığımızda yeni istiqamətlər yaratdığını vurğuladı.

Azərbaycan Prezidenti, eyni zamanda, SOCAR-ın İsveçrədəki fəaliyyətini, İsveçrə şirkətlərinin Azərbaycan iqtisadiyyatına investisiya qoymasını biznes sahəsində əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev qarşıdan gələn illərdə əməkdaşlığın daha da genişlənəcəyinə və güclü tərəfdaşlıq əlaqələrinin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Səfir, ilk növbədə, Qarabağa səfərinə toxunaraq, orada gedən yenidənqurma işləri ilə tanış olduğunu qeyd etdi, İsveçrə şirkətlərini buraya dəvət etmək istəyində olduğunu dedi.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafında İsveçrə şirkətlərinin fəal iştirak etdiyini bildirən Tomas Ştel bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Azərbaycan ilə artıq 20 ilə yaxındır ki, əməkdaşlıq proqramının həyata keçirildiyini bildirən səfir İsveçrə şirkətlərinin Azərbaycanda makroiqtisadi sahədə, eləcə də maliyyə və özəl sektorların inkişafındakı fəaliyyətlərini məmnunluqla qeyd etdi.

***AZƏRTAC***

# İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədlərinin, habelə 2024-cü ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi 17,5 faiz, 2024-cü ilin sonuna isə 24,0 faiz müəyyən edilsin.

**2.** Dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi 30,0 faiz müəyyən edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 oktyabr 2023-cü il**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin noyabr ayında vətəndaşların qəbulu

# C Ə D V Ə L İ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 2 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 3,17,24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7,23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi _ Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 24 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

Nazirlər Kabinetində

# Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına nəzarətin və hesabatlılığın həyata keçirilməsi və tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumatın verilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb. Bu tapşırıqdan irəli gələrək oktyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üzrə nəzarət tədbirlərinin nəticələri haqqında iclas keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasda Dövlət Proqramının icrasına məsul olan aidiyyəti dövlət qurumlarının rəhbərləri və işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iştirak ediblər.

İclasda Dövlət Proqramında nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası üzrə işlərin gedişinə nəzarətin birbaşa operativ və səmərəli təmini məqsədilə yaradılmış çoxfunksional interaktiv (onlayn rejimdə kamera və peyk xəritələri) Elektron Portalın təqdimatı **(boyukqayidish.gov.az)** keçirilib, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı 2023-cü ilin birinci yarımilliyi üzrə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində aparılmış monitorinq və qiymətləndirmənin nəticələri barədə hazırlanmış hesabatla çıxış edib.

Sonra iclasda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri tərəfindən görülən işlər barədə məlumat verilib və hesabatla bağlı ətraflı müzakirələr aparılıb.

Müzakirələr zamanı Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası zamanı müşahidə olunan əsas çətinliklər və növbəti müddətdə diqqət yetirilməli istiqamətlər vurğulanıb.

İclasın yekununda "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində aparılmış monitorinq və qiymətləndirmənin nəticələri barədə hazırlanmış hesabatın Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, habelə Dövlət Proqramının növbəti icra mərhələsində işlərin operativ, vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi, həmçinin layihələrin icrası prosesində qarşıya çıxan çətinliklərin həlli üçün aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

## (Fəlsəfi-sinergetik təhlil)



(əvvəli XQ-nin 21 oktyabr nömrəsində)

**II məqalə**

*Həqiqət xaos yaradan deyil,*
*dünyanı sadələşdirəndir...*
*Antuan de Sent-Ekzyüperi*

### Milli dövlətçiliyin qızıl dövrü

I məqalənin son tezisində ifadə olunan mənaları fəlsəfi və sinergetik təhlil etmək üçün onu iki məntiqi hissəyə ayıraq: Onlardan biri "...əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqı..." dır, digəri isə "...2003–2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşmüş..." və həmin kontekstdə "...2003–2023-cü illər... Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri" olmuşdur.

Con Spenser Braunun XX əsrin 60–70-ci illərində yaratdığı "forma"məntiqi prizmasında "dövlətçilik tariximiz" fon, yəni hansı reallığa görə proseslərə nəzər saldığımızı ifadə edir. "Azərbaycan xalqının siyasi, mənəvi-əxlaqi, mədəni yaşantıları isə bu fonun konkret fiqurudur, yəni hər zaman kəsiyində əyani təzahürüdür. 2003–2023-cü illər isə dövlətçilik fonunda fiqurun malik olduğu yeni incə və qiymətli "dövlətçilik naxışıdır". Bu mənada, doğrudan da 2003–2023-cü illəri "çoxəsrlik milli dövlətçilik tariximizdə bənzəri olmayan qızıl dövrü" adlandıra bilərik.

Vurğuladığımız məntiqə görə, "milli dövlətçiliyin qızıl dövrü" zamanca iki faktora görə müəyyənləşdirilir: Birincisi, Azərbaycan xalqının keçmişdəki yaşantıları – "əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqı". İkincisi, son 20 ildə həmin xalqın "həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqinin" özünü göstərməsidir.

Belə çıxır ki, C.Braun məntiqinə görə, 2003–2023-cü illəri əhatə edən mərhələ Azərbaycan milli dövlətçiliyi və toplumunun tarixi təkamül dinamikası aspektində adi zaman-məkan kontinuumu deyildir – o, yeni mərhələdir! Bu keyfiyyətdə həmin dövr keçmişlə gələcək arasında harmoniya yaradan və konkret məzmun alan "indi"dir! Sinergetikanın fəlsəfəsində bu duruma "indi-yeni" deyirlər (bax: məs., Serge F.Timashev, Susie Vrobel. A new Dialogue with Nature: Fractal Time and Flicker Noise Spectroscopy. The Institute for fractal research. IF Paper 1/04 ISSN (1436-1779). 2003: home tonline.de/home Susanne.Vrobel / home html.).

Vurğuladığımız məntiq işığında Prezident İlham Əliyevin 2003–2023-cü illərdəki fəaliyyətinin hansı mənalarda milli dövlətçiliyin qızıl dövrü olmasının fəlsəfi və politoloji dərkinin "indi-yeni" anlayışı kontekstində aktuallığını anlamağın dövlətçiliyin ümumiyyətlə fəlsəfi dərki baxımdan faydalı ola biləcəyini düşünürük. Bizcə, burada İlham Əliyevin son 20 ildə həyata keçirdiyi siyasətin keçmişlə gələcək arasında geştalt proses kimi (yəni fraqmetar deyil, bütöv, tam keçid prosessuallığı statusunda) keçid etməyə imkan verən sistemli fəaliyyətinin "indi"dəki "yeni" kimi fəlsəfi anlamı öz plana çıxmalıdır. Bu cür fəlsəfi-sinergetik ümumiləşdirmə Prezidentin fəaliyyətinə həm sistemli, ardıcıl, düşünülmüş geştalt proses kimi baxmağa, həm də bu fəaliyyətin hazırkı mərhələ (fəlsəfi anlamda "indi"də) üçün "yeni"liyinin nədən ibarət olduğunu aydınlaşdırmağa imkan verər. Vəzifəni konkret olaraq belə müəyyənləşdirə bilərik: Prezidentin fəaliyyətinin "indi-yeni" kontekstində yeniliyi nədən ibarətdir? Prezidentin fəaliyyətinin yeni məzmunu konkret olaraq siyasi reallığın hansı aspektində və ya sahəsində yaranmışdır və praktiki faydasını göstərmişdir?

Bu suala fəlsəfi-sinergetik cavab axtarmaq üçün "indi-yeni" anlamında keçmişlə gələcəyin bağlantısını ifadə edən mənalar yükünə baş vurmaq lazımdır. Yəni, XX əsrin böyük filosoflarından olan Jil Delyoz mənasında indidən keçmişə və gələcəyə eyni anda "yayılmaq" gərəkdir (Mişel Fuko onun haqqında demişdir ki, "fəlsəfədə XX yüzil Delyoz əsridir"). Bizim bu "fəlsəfi yolçuluğumuzun" abstrakt deyil, konkret-praktiki faydalı olması üçün dahi bir şəxsiyyətimiz də vardır: o, əlimizdən tutub düzgün yolu göstərəcəkdir! Həmin böyük dahi şəxsiyyət Heydər Əliyevdir! Prezident İlham Əliyevin indidəki yeniliyini real anlamaq üçün Ulu öndərin fikirlərinə, kəlamlarına və fəaliyyətinə varmalıyıq. Mayak rolunu oynayacaq tezis, formul, kəlam da mövcuddur. Konkret olaraq:

### "Fəxr edirəm ki, mən azərbaycanlıyam" formulu

"Fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı fonunda "...əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olmuşdur" tezisi dolğun məna kəsb etmirmi? Biz fəlsəfi əsaslandırmağa çalışacağıq ki, tezisin dolğun mənasını, hər şeydən öncə, Ulu öndərin vurğulanan formulu fonunda anlamaq mümkündür və faydalıdır. Çünki müasir azərbaycanlı üçün həmin kəlam təfəkkürün köləliyindən və psixoloji natamamlıqdan qurtuluşun mənəvi-əxlaqi, intellektual, siyasi-ideoloji və praktiki vətəndaş duyumunun bütün müsbət enerji çalarlarını özündə ehtiva edir. J.Delyoz mənasında bu formulun məzmun sahəsində "indi"nin fonunda "keçmişə və gələcəyə intellektual yayılmaq" təfəkkürün köləliyinin və psixoloji natamamlığın "yuvalandığı maskalı köşəyə" işıq salmağa imkan verəcəkdir.

"Əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış" tezisinin fəlsəfi kontekstindən başlayaq. Heydər Əliyev bu fikrin məzmununa emosional-duyğusal aspektlə yanaşı, yüksək zəka səviyyəsində çox dərindən nüfuz etmişdir. Ulu öndər böyük düşünən siyasətçi kimi bu tezisin dövlətçilik çərçivəsində anlamına varmışdır. Bu anlamı ən ağır siyasi konyuktura (Sovetlər dünyanın ən ağır və riskli siyasi konyukturasını yaratmışdı) şəraitində belə, məharətlə təfəkkür hadisəsi kimi praktikada insanların şüurundan və psixologiyasından bir zədə kimi silinməsi üçün ciddi çalışmışdır.

Ulu öndər Azərbaycanın bölünməsi və əsrlərlə ağır məhrumiyyətlərə məruz qalmasının həm təfəkkürdə köləliyi körüklədiyini, həm də insanların davranışlarında ilk növbədə ölkəsinə, xalqına, cəmiyyətə və, nəhayət, müstəqil dövlət olmaq ideyasına psixoloji olaraq natamam münasibət göstərdiyini çox gözəl bilirdi. Hər şeydən öncə, bu zədələri aradan qaldırmaq gərəkdi. Azərbaycanlıların təfəkküründə yad təzyiq nəticəsində formalaşan kənardan əbədi asılılıq qavramı və duyğusu "əbədi azadlıq və müstəqillik" inamı ilə əvəz olunmalı idi.

Bəlkə də XX əsrin əvvəllərində ADR-i quran dahilərimiz, bütövlükdə, ictimai şüur və toplum psixologiyasını bu girovluqdan qurtara bilmədikləri üçün Cümhuriyyətin ömrü qısa oldu. Hər bir halda, SSRİ kimi amansız, sərt və total nəzarətə malik bir sistemdə Heydər Əliyevin azərbaycanlı təfəkkürünə "mən azad olub öz dövlətimi qura bilərəm" əminliyini və "öz tariximi özüm yaratmağa qadirəm" psixoloji əminliyini aşılaması sön dərəcə mürəkkəb və çətin bir vəzifə idi. Lakin Heydər Əliyev ona görə dahidir ki, faktiki olaraq çıxılmaz olan bu vəziyyətdən siyasi-ideoloji və praktiki çıxış yolunu tapdı. Ulu öndər bunun üçün üç istiqamətdə sovet sisteminin imkan verdiyi maksimal səviyyədə fikrində tutduqlarını həyata keçirdi. Onlar bizim müxtəlif ədəbiyyatda təsvir olunan sovet dövründə Heydər Əliyevin kadr siyasəti, iqtisadi inkişaf xətti və mədəni, milli-mənəvi, əxlaqi dəyərlərin qorunması idi.

### Kadrların azərbaycanlılaşdırılması...

Bunlar sovet dönəmində Heydər Əliyevin dahiyanə tapıntısı idi. Əsrlərlə rus imperiyasının və sonra sovetlərin Azərbaycanın idarə edilməsində elə kadrlara üstünlük verirdilər ki, onlar Azərbaycanın deyil, Mərkəzin maraqlarından ölkəmizə yanaşırdılar. Həmin kadrların böyük əksəriyyəri üçün Azərbaycan bu mənada, sevgi obyekti, səmimi olaraq uğrunda çalışmaq məkanı deyil, yad bir yerdə imperiyanın maraqlarını təmin etmək üçün prioritet idi. Bu, həm idarəetmənin siyasəti və fəlsəfəsinin canı, həm də Azərbaycana münasibətdə psixoloji münasibətin əsas məzmunu idi. Bunun fonunda bir tərəfdən, Azərbaycana və azərbaycanlılara yuxarıdan aşağı baxmaq, onları bacarıqsız, qeyri-mədəni, alverçi, həmişə qanunu pozmağa çalışan kütlə olaraq təsəvvür etmək normaya çevrilmişdi. Digər tərəfdən isə həmin yanaşmanın fonunda azərbaycanlıların özlərinin bir-birinə münasibəti radikal, dözülməz və qarşılıqlı bəyənməmək müstəvisinə salınmışdı. Bu iki tendensiya sintez halında iki zərərli nəticə verdi: azərbaycanlı təfəkküründə özünün toplum və ölkə olaraq kənardan asılılığı normaldır, təbiidir, çünki biz bacarıqsızıq. Bu halı biz "təfəkkürün köləliyi" adlandırırıq. Təfəkkürün köləliyi daima hər bir dövləti və cəmiyyəti toplumsal və milli məsələlərdə xilas yolunu kənarda axtarmağa istiqamətləndirir. Buna görə də cəmiyyətdə nə baş verirsə, "bu millət belədir, ondan başqa nə gözləyəsən", "materialı xarabdır" və s. kimi özünü aşağılayıcı reaksiya ilə "izah" edilməyə çalışılırdı (təbii ki, bu, total olaraq hər kəsə aid deyildir).

Əgər bir təfəkkür tərzi zamanca uzun müddət davam edirsə, ondan avtomatik olaraq psixoloji natamamlıq kompleksi yaranır. Bu, hər bir insanın cəmiyyətin üzvü kimi və bütövlükdə, toplum olaraq dövlət miqyasında nəyisə yarada bilməsinə inamsızlıqdır. Bunu əsaslandırmaq üçün, adətən, xalqı onun tarixində olan mənfi hadisələri qabartmaqla ruhdan salmağa çalışırlar. Həmin məqsədin tərkibində isə "Azərbaycan rəhbərləri tarixən satqın olmuşlar", "filan hökmdar filan məsələdə filankəsi satdı", "Səfəvilər və Osmanlılar bir-birini qırmışlar və biz türk deyilik", "Azərbaycan ziyalıları satqındırlar və dərindən düşünən deyillər", "bu xalqın mədəniyyəti saxtadır, çünki öz kökünü düzgün bilmir" və sair kimi ruh düşgünlüyü yaradan, özünə inamı sıfırlamağa yönəlmiş fikirləri ictimai dövriyyəyə buraxırdılar. Əlavə olaraq, tariximizdən olan bir sıra epizodları zaman kontekstindən çıxarıb mütləq fakt kimi təqdim etməyə çalışırdılar. Bunun da adını "mənbələrə istinad etmək" qoyurdular (yeri gəmişkən, bu cəhd ara-sıra yenə davam edir və bəhanə həmənkidir: mənbələrə istinad etmirlər).

Ulu öndər ustalıqla sovet dönəmində Azərbaycanı və azərbaycanlıları bu cür aşağılamaq xəttinə qarşı güzəştsiz mübarizə aparmışdır. Məhz bu baxımdan Heydər Əliyev kadrları azərbaycanlılaşdırırdı. Yəni təhlükəsizlik orqanlarından başlayaraq hər dövlət qurumu üçün Azərbaycan sevgisi, marağı olan və onun üçün çalışan kadrları hazırlamağa başlamışdı. Bu proses hələ keçən əsrin 40-cı illərində Heydər Əliyev "KQB"-də şöbə müdiri olanda başlamışdır. 1969-cu ildə respublikaya rəhbər gələndən sonra daha da kütləviləşdi və çox sayda gənclər SSRİ-nin nüfuzlu təhsil ocaqlarında Azərbaycan kadrı kimi yetişdirildi. Yəni, Heydər Əliyev kadrları azərbaycanlılaşdırma prosesini etnik mənsubluğa görə deyil, Azərbaycana, Vətənə, ölkəyə münasibətə görə aparmışdır. Bu da çox gözəl nəticələr vermişdir.

Kadrların azərbaycanlılaşdırılması ilə yanaşı, iqtisadi inkişafın təmini əsas yerlərdən birini tuturdu. Burada Ulu öndərin məqsədi həm xalqın rifah halını yüksəltmək, həm də bir sıra qüvvələrin "Azərbaycan iqtisadi cəhətdən yararlı deyil" kimi böhtanlarına qarşı mübarzə aparmaqdı. Dalbadal alınan keçici bayraqlar Azərbaycanı bu baxımdan böyük bir fəlakətdən xilas etdi – Mərkəzdəki bir sıra dairələr Azərbaycanı yox etmək imkanından məhrum oldular. Heydər Əliyev hər kəsə sübut etdi ki, Azərbaycan iqtisadiyyatı inkişafdadır və azərbaycanlılar cəmiyyət statusunda çox müsbət işlər görə bilirlər.

Nəhayət, Heydər Əliyevin Azərbaycanın mədəniyyət məkanı kimi də mövcud olduğunu sübut etməsi tarixi və möhtəşəm bir xidmət idi. Ulu öndər həm milli mədəniyyəti təbliğ edir, ana dilini önə çəkir, həm də Azərbaycanın milli maraqlardan çıxış edən mədəniyyət xadimlərini, şair, yazıçı və alimlərini qoruyurdu. Heydər Əliyev keçirdiyi yubileylər, iclaslar və başqa tədbirlərlə sübut etdi ki, Azərbaycan mədəniyyət məkanı kimi də mövcuddur!

Kadrların azərbaycanlılaşması, iqtisadi infrastukturun inkişafı və milli mədəniyyətin qorunması sintez halında azərbaycanlıların təfəkküründə köləliyi təmizlədi və natamamlıq kompleksinə ağır zərbə vurdu. Bu, Heydər Əliyevin Azərbaycanı xilasının birinci mərhələsi idi.

Müstəqillik bərpa ediləndən sonra bədxahlar yenə baş qaldırdılar. Onlar 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərindən başlayaraq yeni səviyyədə Azərbaycanda kölə təfəkkürünü və psixoloji natamamlığı körükləməyə girişdilər. Bu, "Azərbaycanın öz ordusuna ehtiyac yoxdur", "biz Rusiyasız dövlət ola bilmərik" və ya "biz Qərbsiz dövlət ola bilmərik", "ADR-i quranlar satqın idi", "Azərbaycanda yaradılan hər bir təşkilat kənardan sifariş olunur", "ermənilər çox güclü, biz isə çox zəifik, bir-birimizi satırıq", "ermənilər Bakıya kimi gələcəklər, ona görə də rusdan yapışmalıyıq", "bizim rəhbərlər satqındırlar", "ziyalılar fərsizdirlər", "xalqın öz mədəniyyəti yoxdur – olanları farsdan və rusdan götürmüşlər" və s. kimi olduqca bədbin rəylər yaratmağa çalışırdılar.

Bütün bunlar Heydər Əliyevin ikinci mərhələdə Xilaskar rolunu yerinə yetirməsinə səbəb oldu. Ulu öndər siyasi hakimiyyətə 1993-cü ildə gəlişi ilə praktiki siyasi addımları və həyata keçirdiyi konkret sosial-iqtisadi, energetik layihələrlə sübut etdi ki, Azərbaycan müstəqil dövlət kimi mövcud ola bilər! Bu, böyük bir qurtuluş idi – təfəkkürün köləliyindən və psixoloji natamamlıq kompleksindən! Çünki Heydər Əliyev sözdə deyil, əməldə müstəqil dövlət qurdu, cəmiyyəti birləşdirdi, təhlükələri uğurlu tədbirləri ilə aradan qaldırdı və bir sözlə, Azərbaycanı bürümüş bədbin ideoloji və psixoloji mühitə bir nikbinlik, özünəinam gətirdi. Və həmin prosesin işığında məşhur "mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı səsləndi.

Bu kəlam Ulu Öndərin böyük tarixi-siyasi və dövləti xidmətinin özündə ehtiva etdiyi müsbət enerjinin yığcam ifadəsidir! Bu xilas formulunun həmin pozitiv enerjisi fonunda İlham Əliyevin 20 illik fəaliyyətinə baxanda meydana olduqca maraqlı fəlsəfi və siyasi-nəzəri məqamlar çıxır. Məsələnin bu tərəfi bütövlükdə çox genişdir və biz yalnız iki tezisin işığında mövzuya nəzər salaq. Onlar aşağıdakılardır:

– İlham Əliyevin müəyyənləşdirdiyi Yol Xəritəsi güclü iqtisadi potensialın formalaşdırılmasını, müasir cəmiyyət quruculuğunu, qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirmək qüdrətində olan Silahlı Qüvvələrin yaradılmasını, beynəlxalq aləmlə bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsini və bütün bunların son hədəfi kimi Azərbaycanın müstəqil siyasətini, ərazi bütövlüyünün və suverenliyinin bərpasını nəzərdə tutur;

– Prezident İlham Əliyevin dövlət başçısı postunda 20 illik fəaliyyətinin təhlili onu göstərir ki, o, həmişə cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq, siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini qazanaraq, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Əgər bu tezislərə linqvisitk məna tutumunun semantikası sərhədindən kənara çıxıb, praktiki və real fəaliyyətin bir komponenti kimi baxsaq, Prezidentin fəaliyyətində yeni keyfiyyətlərin araşdırılması məsələsinə gəlib çıxarıq. Çünki vurğulanan iki tezis faktiki olaraq Ulu öndərin "bir millət, iki dövlət" və "mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamlarının XXI əsrin mürəkkəb, riskli, keşməkeşli realıqları prizmasında İlham Əliyevin fəaliyyətinin real nəticələrinin bir qisminin yığcam ifadəsi kimi görünür. Yəni məsələnin bu cür qoyuluşunun fəlsəfi və politoloji baxımdan iki tərəfi vardır:

Birincisi, İlham Əliyev Ulu öndərin ifadə etdiyi, fəaliyyətində eksklüziv həyata keçirdiyi başlıca xətti yeni şəraitə uyğun böyük uğurla davam etdirmişdir.

İkincisi, İlham Əliyev bu prosesdə özü yeni liderlik nümunəsi yaratmışdır.

Buradan təbii bir sual meydana çıxır: İlham Əliyevin yeni liderliyinin fəlsəfəsi vurğulanan kontekstdə nədən ibarət ola bilər?

Bu suala cavab axtarışları, zənnimizcə, Prezidentin yeni liderliik nümunəsinin konkret məzmun və mahiyyətinin fəlsəfi təhlilindən başlamalıdır.

### Kreativ liderlik: anlamı, missiyası və məqsədi

Öncə "kreativ liderlik" anlayışının fəlsəfi və siyasi anlamlarına nəzər salaq. Bunun üçün, ümumiyyətlə, "kreativ" termininin nəyi ifadə etdiyini aydınlaşdırmaq gərəkdir. Filosoflar vurğulayırlar ki, ümumi səviyyədə "yaradıcılıq" və "kreativlik" sinonimdirlər. Lakin bununla yanaşı, onların çox sayda müqayisələri mövcuddur və yekdil mövqe formalaşmamışdır (bax: məs., Касавин, И.Т. Научное творчество как социальный феномен // Эпистемология и философия науки 2022. T. 59. № 3. C. 19–29). Burada onlara baş vurmaq imkanı yoxdur. Onu qeyd edək ki, C.P.Hilforda görə, kreativliyin parametrlərindən biri problemləri köhnələrin təhlili əsasında yeni ideyaların tətbiqi ilə həll etmək qabiliyyətidir. Bu tezisdən yanaşsaq, "siyasi kreativliyi" siyasətçinin hər yeni situasiyada keçmiş təcrübə əsasında yeni ideyaların tətbiqi ilə məsələləri həll etmək bacarığı kimi təsəvvür edə bilərik. Bu çərçivədə "kreativ liderlik" liderin qarşılaşdığı hər yeni situasiyada dövlətin və toplumun maraqları baxımından faydalı olan və konkret innovativ addımlar atmaqla fəaliyyət göstərməsidir. Burada nəzəri, ideoloji və praktiki aspektlər sintez halında olmalıdır, yəni bir-biri ilə mükəmməl harmoniya təşkil etməlidir. Nəzəri hazırlıq, ideoloji düzgün istiqamətlə və hər ikisi hər situasiyada liderin innovativ qərarları ilə vahid sistem təşkil etməlidir.

Deməlı, kreativ liderlik siyasətçinin fəaliyyətdə yeni siyasi mənalar yaratmaq qüdrəti ilə sıx bağlıdır. Yeni siyasi mənalar fəaliyyətin hansı sferasında və necə yaranır? İzahını tələb edən və fəlsəfi-sinergetik mahiyyəti olan sualdır. Bu yeni ideyaların yaranma mexanizmi və onların verdikləri nəticələrin fəlsəfi və siyasi-nəzəri təsəvvürü olmasa, "kreativ lider" anlayışının məzmunu tam mənalanmamış qalır.

Bu anlamda "yeni siyasi mənalar" liderlə onun ünsiyyətdə olduğu idarəetmə, ideoloji, mənəvi-əxlaqi, siyasi, diplomatik və digər obyektlərlə (və subyektlərlə) qarşılıqlı kommunikativ fəaliyyətdə yaranır. Buna "siyasi interfeys zonası" deyək ("interfeys fizikadan gələn, lakin həm də fəlsəfiləşən və bizim siyasiləşdirdiyimiz termindir, mənası "vasitəçi", "aralıq zona" deməkdir). Siyasi interfeys spontan, öz-özünə liderin fəaliyyəti zamanı yaranır və onu birbaşa liderin kommunikativ fəallığı müəyyən edir. Bu məqamı daha aydın dərk etmək üçün vacib saydığımız iki faktora nəzər yetirək.

Konkret ifadə etsək, kreativ liderliyin yeni siyasi mənaların yaranması aspektində anlamı fəlsəfi olaraq iki məsələni aktuallaşdırır. Birincisi, liderin siyasi-ideoloji mövqeyi ilə diplomatik üsullarının harmoniyası və məqsədyönlülüyü. İkincisi, birinci faktoru zamanında tətbiq qabiliyyəti ilə uyğunlaşdıra bilmək.

Deməli, kreativ liderliyin anlamı siyasətçinin hər situasiyada innovativ qərarlar qəbul etmək keyfiyyəti ilə sıx bağlıdır. Kreativ liderliyin missiyası dövlətin və toplumun marağı naminə situasiyanı dövlətin xeyrinə dəyişmək qüdrətidir. Onu vurğulayaq ki, biz burada "liderin missiyası" anlayışını akademik İsa Həbibbəylinin müəyyən etdiyi məzmuna uyğun işlədirik. İ.Həbibbəyli həmin anlayışı Ümumilli liderlik kontekstində məzmunlaşdırmışdır və Heydər Əliyev nümunəsinin nəzəri təhlilinə tətbiq etmişdir (bax: İ. Həbibbəyli, Ümummilli liderlik: miqyası və missiyası / "Azərbaycan" qəzeti, 12 dekabr 2019-cu il//URL: http://imbb.az/az/news/431). Biz bu məzmundan çıxış edərək ümumiyyətlə kreativ liderliyin missiyası üzərində düşünməyə çalışırıq. Kreativ liderliyin məqsədi müstəqil dövlət quruculuğunu daim inkişaf etdirmək və dünyanın ən inkişaf etmiş dövlətləri sırasına daxil olmaqdır.

İndi bu faktorların prizmasında İlham Əliyevin yuxarıda vurğuladığımız nailiyyətlərinə nəzər salaq. İlham Əliyev müəyyən etdiyi Yol Xəritəsini tam yerinə yetirməklə güclü iqtisadi potensialın formalaşdırılmasına, müasir cəmiyyət quruculuğuna, qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirmək qüdrətində olan silahlı qüvvələrin yaradılmasına, beynəlxalq aləmlə bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsinə nail olmaqla "Bir millət, iki dövlət!" və "Fəxr edirəm ki, mən azərbaycanlıyam!" formullarının işığında birinci mərhələnin son hədəfi kimi Azərbaycanın müstəqil siyasətinə, ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olmuşdur. Prezident, faktiki olaraq, Azərbaycan vətəndaşlarının təfəkkürün köləliyindən və psixoloji natamamlıqdan XXI əsrin ziddiyyətli və mürəkkəb situasiyalarında tamamilə xilas olmaları üçün nəhəng işlər görmüşdür! İlham Əliyev vurğuladığımız hər iki tezisin fəlsəfəsini konkret praktiki siyasi fəaliyyəti ilə həyata keçirməklə milli dövlətçiliyin daha da inkişaf etdirilməsində əvəzolunmaz fəaliyyət göstərmişdir.

İkinci tezis də bu prizmada fəlsəfi izah oluna bilər. Konkret ifadə etsək, Prezident İlham Əliyev həmişə cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq, siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini qazanaraq, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz əldə etmişdir. Bu cümlədə ifadə olunan fikir öz növbəsində iki fəlsəfi məqama baxmağı zəruri edir. Onlardan biri kreativ ideyalar və siyasi mənaların liderlik fəaliyyətinin hansı sahəsində meydana gəlməsinin fəlsəfi-sinergetik izahı ilə bağlıdır. Digəri isə liderin şəxsi ünsiyyət qabiliyyətinin onun kreativliyinə və milli, regional və qlobal miqyaslarda nüfuz qazanmasına göstərdiyi təsirin fəlsəfi-sinergetik məqamlarıdır. Və həmin məqamların təhlili məqalənin girişində vurğuladığımız ikinci məntqi hissənin – "...2003–2023-cü illər... Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olmuşdur" qənaətinin işığında aktual görünür.

***Füzuli QURBANOV***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Lavrovun “real delimitasiya” məntiqi

## Rusiyanın baş diplomatı Ermənistana hansı mesajı göndərdi?

(əvvəli 1-ci səhifədə)

Rəsmi İrəvan görüşdə təmsil olundu. Ancaq toplantı ilə bağlı yayılmış görüntülərdən sezilən əhval-ruhiyyə onu deməyə əsas verdi ki, bu təmsilçilik heç də məmnuniyyət doğurmur. Sanki Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Tehrana digər həmkarlarının nə danışdığını, nə düşündüklərini öyrənmək üçün yollanmışdı...

Rusiyanın Xarici işlər naziri Seygey Lavrov nə qədər desə ki, “3+3” formatı Azərbaycanla Ermənistan arasındakı vəziyyətin müzakirəsinin aparıldığı platforma deyil, bu müstəvinin 44 günlük müharibənin doğurduğu reallığın bir qütbü olduğunu danmaq mümkünsüzdür. Müharibədən sonrakı Cənubi Qafqaz düzəni isə bir o qədər hamar deyil və bu naharmarlığın başlıca səbəbi İrəvan və onun xaricdəki havadarlarıdır.

Doğrudur, S.Lavrov keçirdiyi mətbuat konfransında “3+3” formatının Azərbaycanla Ermənistan arasında pozitiv tendensiyaların yaranmasına kömək baxımından əhəmiyyətindən söz açmağı da unutmadı. Rusiyanın XİN rəhbərinin mövcud xüsusda üzərində dayandığı iki məqam var idi. Birincisi, o vurğuladı ki, Qarabağ münaqişəsi artıq bitib. Bunu son zamanlar ölkənin rəsmiləri, siyasi çevrələrinin təmsilçiləri, ən əsası isə Prezident Vladimir Putin dəfələrlə dilə gətirib. İkinci ən vacib məqam isə Rusiyanın Bakı-İrəvan normallaşmasına verəcəyi töhfə ilə bağlıdır. Mövzuya toxunan Kremlin baş diplomı Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası məsələsindən söz açıb.

İlk baxışdan Lavrovun söylədiklərində heç bir təəccüblü şey yoxdur. Yəni, tərəflər arasında münaqişə bitibsə, deməli, növbədə dayanan həlli vacib məsələ sərhədlərin dəqiqləşdirilməsi olmalıdır. Bəs, bu zaman nəyə istinad edilməlidir? Əlbəttə ki, xəritələrə. Xəritələr haradadır? Lavrov deyir ki, onlardadır, yəni Rusiyada. Görünür, məhz buna görə də XİN rəhbəri Bakı – İrəvan münasibətlərinin tənzimləməsi üzrə növbəti təmaslarda ölkəsinin yerini müəyyənləşdirməkdədir.

Ancaq Lavrov reallığı görür. Görür ki, Ermənistan Rusiyanı danışıqlar prosesindən uzaq tutmağa çalışır və xəritə məsələsini sırf ona görə qabardır və deyir: “Biz bundan (xəritənin Rusiyada olmasından – red.) böyük problem düzəltmək istəmirik. Əgər arzu edirlərsə, qoy onlar (Azərbaycanla Ermənistan – red.) xoşbəxtliyi Brüsseldə də axtarsınlar. Ancaq biz real delimitasiyaya real kömək göstərməyə həmişə hazırıq”.

Göründüyü kimi, Rusiyanın baş diplomatı artıq problem yaratdı. Əvvəla, Lavrovun atmacalı danışdığı göz önündədir. Hər halda, “xoşbəxtlik” ifadəsinin siyasi terminalogiya ilə qətiyyən uzlaşmadığı aşkardır. Azərbaycan üçün sülh prosesinin hansı müstəvidə müzakirəyə çıxarıldığı qətiyyən maraqlı deyil. Əsas odur ki, onu təmin edən nəticə əldə olunsun. Əslində, Ermənistan rəsmiləri də ölkələri üçün sülh məkanının hansısa əhəmiyyət daşımadığını bildiriblər. Ancaq məlumdur ki, onların söylədikləri səmimiyyətdən uzaqdır. İndiki halda isə tam uzaqdır.

***

Yuxarıda da bildirdiyimiz kimi, Rusiya Qarabağ münaqişəsinin sona çatdığını vurğulayır və bunu söyləmək üçün əsası var – Ermənistan Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Yəni, Moskva məsələyə mövcud kontekstdən yanaşmanı irəli sürür. Bu yanaşma isə Ermənistanın Qərb müstəvisinə daşıdığı məntiqdən uzaqdır.

Məlum olduğu kimi, rəsmi İrəvan ölkəmizin Qarabağ üzərindəki suveren hüquqlarını qəbul etdiyini bildirsə də, hərəkətləri ilə bölgəyə dair avantüranı daşımaq əzmini ortaya qoymaqdadır. Qarabağ ermənilərinin qayıdışı üçün təhlükəsizlik və hüquqlar məsələsinin ortaya atıldığı, mövcud xüsusda əraziyə təminatçı qismində BMT sülhməramlılarının yeridilməsinin təklifi kimi oyunların oynanıldığı faktdır. Nəzərə alsaq ki, hazırda Kreml durumu qəti qiymətləndirir və Qarabağla bağlı İrəvana hansısa şans tanımır, Ermənistan üçün məqbul olan yalnız Qərb platformasıdır.

Bütün bunlara görədir ki, Lavrov, belə demək mümkünsə, xəritə məntiqini əsas sayır. Bəs, görəsən Rusiya XİN rəhbərinin nəzərdə tutduğu xəritələr Azərbaycanda və Ermənistanda yoxdurmu? Çox güman ki, var. Ancaq indiki halda söhbət Rusiyadan gedirsə, ölkədə 1918-ci ilin xəritələri də var, Azərbaycanın və Ermənistanın SSRİ-nin yeni yarandığı dövrdəki xəritələri də. Və o xəritələrə diqqət yetirəndə məlum olur ki, Ermənistan adlı heç nə yoxdur. Ola bilər, Lavrovun demək istədiyi elə bu idi. Axı, İrəvanın Cənubi Qafqazla bağlı avantürist niyyətlərindən xəbərdardır. Onun Qərbə arxalanaraq hansı oyunlar çevirdiyinin fərqindədir.

***

Hazırda Rusiyanı narahat edən Ermənistanın Azərbaycana qarşı antipatiyası və mövcud xüsusda həyata keçirməyə cəhd göstərdikləri yox, İrəvanın Bakıya münasibətdə tutduğu barışmazlıq xəttinin Qərb qiyafəsinə bürünməsidir. Əslində, baş nazir Nikol Paşinyan administrasiyasının götürdüyü kurs “3+3” formatına da ziddir. Çünki bu formatda təmsil olunan Türkiyə və İran kimi regional güclər Rusiyaya həm hörmətlə yanaşırlar, həm də onu bölgədə bərabərhüquqlu əməkdaşlıq tərəfi qismində qəbul edirlər. Əl boyda Ermənistan isə məsələni düşünmür, heç düşünmək belə istəmir. Nəinki istəmir, üstəlik, Azərbaycana qarşı barışmazlıq trayektoriyasına Kremlə əks mövqe məntiqini də yükləyir. Rusiyada durumu məhz bu cür qiymətləndirənlər çoxdur. Onlar yaxşı anlayırlar ki, İrəvan Moskvanı bölgədən tamamilə sıxışdırmaq istəyənlərin tərəfindədir.



Bəli, N.Paşinyan və komandasının üzvləri Qərblə Rusiya arasında balansı gözləmir, danışanda da Ermənistanın müstəqilliyindən, suverenliyindən, dövlətçiliyindən dəm vururlar. Hansı dövlətçilikdən danışırlar? Lavrovun xəritə məntiqinin arxasında bu suala cavab gizlənməkdədir. Rusiyanın XİN rəhbəri gerçək xəritələrdə olmayan Ermənistanın necə yarandığını, sonradan ona hansı ərazilərin peşkəş edildiyini bilir və görünür, “real delimitasiya” fikrini məhz ona görə gündəmə gətirir.

***

O da məlumdur ki, Ermənistan delimitasiya dedikdə SSRİ Baş Qərərgahının 1975-ci il xəritəsi üzərində dayanır. Sual olunur: Birincisi, nəyə görə məhz 1975-ci ilin xəritəsi? İkincisi, nə üçün SSRİ Baş Qərargahının xəritəsi? Heç şübhəsiz, burada da bir manipulyativ məqam var. Məhz sözgedən xəritədə Ermənistan indiki kimi göstərilib. O zaman başqa sual da meydana çıxır: Nə üçün İrəvan otuz ildən artıq bir müddətdə həmin xəritəni nəzərə almamış, Azərbaycanın torpaqlarını işğalda saxlamışdı? Digər tərəfdən, hazırda istər Ermənistan, istərsə də Qərb Alma-Ata Bəyannaməsini əsas tutur. Görəsən, nə üçün illər ərzində bu Bəyannamənin keçmiş SSRİ respublikalarının bir-birinin müstəilliklərini tanıdığı məntiqi üzərinə köklənilmirdi? Paşinyan deyə bilməz ki, əvvəl baş verənlərin ona dəxli yoxdur. Var, özü də çox yaxşı var. Bəs, yaxşı indi Alma-Ata Bəyannaməsinə istinad nə üçündür? İlk baxışdan düşünülə bilər ki, bu sənədin sərhəd məntiqində 1975-ci ilin xəritəsi ilə uyğunluq mövcuddur.

Ancaq maraqlı məqam var. O da bundan ibarətdir ki, Alma-Ata Bəyannaməsinə əsasən Azərbaycanın müstəqilliyini tanıdığını bəyan edən Ermənistan Qarabağdakı separatçı rejimin həmin sənədin imzalanmasınadək artıq yarandığını nəzərə alır. Çox güman, “qanun geriyə işləmir” prinsipinə söykənir və buna görə Alma-Ata Bəyannaməsini Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin müdafiəsi baxımından maneçilik kimi görmür. Ən əsası isə məsələni Azərbaycanla danışıqlar predmetinə çevirməkdə israrlı görünür. Yəni, reallığı qəbul etmir.

Reallıq isə budur ki, artıq Azərbaycanla Ermənistan arasında ölkəmizə məxsus anklavların qaytarılmasından başqa müzakirə olunmalı yalnız bir məsələ var ki, o da Lavrovun bildirdiyi kimi, sərhədlərin konkretləşdirilməsidir. Yəni sülh danışığı məhz mövcud xüsusda getməlidir. Ermənistan məsələnin bu cür qoyuluşunu qəbul etməyincə, Azərbaycana və Azərbaycan üzərindən Rusiyaya, bəzən isə əksinə Rusiya üzərindən Azərbaycana zidd mövqe nümayiş etdirdikcə, vəziyyət gərginlik məcrasından çıxmayacaq. Lavrov isə dolayısıyla bildirir ki, Cənubi Qafqazda durumu ağırlaşdıraraq Rusiyanı bu platformadan uzaq tutmaq istəkləri reallığın sərt sifəti ilə üzləşəcək. XİN rəhbəri diplomatikliyini qoruyaraq, məsələni “real delimitasiya” adlandırır. İndi nəticə çıxarmaq növbəsi İrəvandadır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “3+3”dən gözləntilər

## Bu layihədə ən çox qazanan Azərbaycan olacaq

(əvvəli 1-ci səhifədə)

### Sülhə, əməkdaşlığa və tərəqqiyə aparan yol

“3+3” formatının Qərbi Cənubi Qafqazdan uzaqlaşdırmağın bir yolu olduğunu deyən ekspertlər də var. Eyni zamanda bu format bölgədə nüfuz davası edən ən barışmaz rəqiblər arasında regional problemlərin birgə həlli üzrə dialoqa şərait yaradır. Bu kontekstdən yanaşanda “altılar”ın




“dəyirmi masa”sı Moskva ilə Tbilisi arasında münasibətlərin normallaşması üçün də ilkin zəmin rolunu oynaya bilər. Amma, regional oyunçuların bu “düzümündə” İrəvanın Rusiya ilə münasibətlərdə eksklüzivliyi qoruyub saxlamaqdan ötrü alternativi yoxdur. Yeni regional platforma ideyasının irəli sürüldüyü dönəmdə onun Tehrana heç bir fayda gətirməyəcəyini deyənlər az deyildi. Guya, Türkiyənin bu dövrəyə girməsi ilə İran oyundankənar vəziyyətdə qalacaqdır. Amma indi vəziyyət tamamilə ayrıcürdür. Hələlik “beşlik”dən ibarət bu regional platformanın iştirakçıları öz aralarında sülhə, birgə əməkdaşlığa və iqtisadi tərəqqiyə aparacaq yolları müzakirə edirlər. Yəni, üç il əvvəldən fərqli olaraq, bu gün “3+3” formatı Rusiyanın da, İranın da işinə yarayır. Əgər məsələyə obyektiv yanaşılsa, bu modelin Azərbaycanın 44 günlük müharibədən sonra bölgədə yaratdığı yeni reallıqdan doğan bir məsələ olduğunu “altılıq”dakı bütün ölkələr qəbul etməlidirlər. Yəni, fakt göz önündədir: Azərbaycan Cənubi Qafqazdakı yeni hərbi və geosiyasi durumun müəllifidir. İndi atacağı addımları da buna uyğun müəyyənləşdirir.

### “Tehran-23”ün görünən və görünməyən tərəfləri

Oktyabrın 23-də Tehranda keçirilən “3+3” regional platformanın ikinci məşvərət toplantısının yekunlarına dair iştirakçılar birgə bəyanat imzalayıblar. Toplantıya təşkilatçılığı və evsahibliyi etmiş İİR XİN-in başçısı Hüseyn Əmir Abdullahianın, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun, Ermənistan XİN-in başçısı Ararat Mirzoyanın, Rusiyanın baş diplomatı Sergey Lavrovun və Türkiyənin Xarici işlər naziri Hakan Fidanın imzaladıqları 9 bənddən ibarət bəyanatda iştirakçı ölkələr arasında qarşılıqlı marağa və qonşuluq münasibətlərinə söykənən dostluq əlaqələrinin inkişafının vacibliyi nəzərə alınaraq, bununla bağlı mübahisələrin dinc yolla nizamlanması, suverenliyə, siyasi müstəqilliyə, ərazi bütövlüyünə hörmət edilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, daxili işlərə qarışılmaması, BMT Nizamnaməsinin bütün prinsipləri əsasında insan hüquqlarına hörmət, güc tətbiqinə və ya güclə təhdid etməyə yol verilməməsi öz əksini tapıb.

Bəyanatda, həmçinin regionda möhkəm sülhün əldə edilməsi və onun iqtisadi inkişafı məqsədilə ikitərəfli və çoxtərəfli məsləhətləşmələrin və qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi qeyd olunur. Yekun sənədi imzalayanlar regionun bütün ölkələri arasında münasibətlərin tənzimlənməsinə və inkişafına yönəlik proseslərdən məmnunluğunu ifadə etmiş, bu platformanın Gürcüstanın bərabərhüquqlu iştirakı üçün açıq olduğunu bir daha təsdiqləyiblər.

İlk baxışda “3+3” formatlı Tehran görüşündən iştirakçıların hamısının məmnun qaldığı təəssüratı yaranır. Fəqət İrəvanın təmsilçisi Ararat Mirzoyanın davranışından və üzünün ifadəsindən Bakının irəli sürdüyü, Türkiyənin dəstəklədiyi bu regional layihənin ölkəsinə “uğurlu perspektiv” vəd etmədiyini sezmək elə də çətin deyildi. Buna isə təəccüblənmək olmaz.

(ardı 6-cı səhifədə)

**Ekspert rəyi**



**Fikrət SADIXOV, politoloq**

Bu formatda hər hansı qeyri-regional dövlətin iştirakı yoxdur. “3+3”-in iştitrakçıları belə bir müdaxiləyə sədd çəkə bilərlər. Düzdür, biz kənar güclərin bu platformaya müdaxilə etmək səylərini görürük. İlk növbədə, Fransanın Ermənistanla əməkdaşlığı çərçivəsində canfəşanlığı var. Avropa Parlamentində Azərbaycana qarşı qərəzli qətnamənin qəbuluna da bu kontekstdə baxmalıyıq. Məhz bu baxımdan bölgə ölkələrinin bir araya gələrək məsələləri öz aralarında müzakirəsi effektli nəticəyə gətirib çıxara bilər. Düşünürəm ki, kənardan müdaxilə ilə bağlı regional oyunçuların hamısı eyni mövqedədir. Amma, bu, o demək deyil ki, “3+3” platformasında müzakirəyə çıxarılan məsələlərdə tərəflərin mövqeləri üst-üstə düşür.

İranın Azərbaycanın mövqeyinə uyğun sayılmayan, yaxud Ermənistanın fərqli mövqeyi var. Hər halda, Bakı həm diplomatik, həm də hərbi-siyasi səviyyədə ortaya qoyulan məsələləri ardıcıl şəkildə həll etməyə hazırdır. Çünki bugünədək biz hədəflərimizə çatmışıq, planladığımız məsələləri həll etmişik. Əlbəttə ki, postmüharibə dövrünə qalan problemlər də mütləq öz həllini tapmalıdır.

Müxtəlif bəhanələrə baxmayaraq, Zəngəzur dəhlizi açılmalıdır. Bu istiqamətdə, ilk növbədə, İran tərəfindən süni maneələrin yaradılmasına cəhdlər edilir. Amma Azərbaycan bütün hallarda öz məqsədinə çatacaq. Bu dəhlizin açılmasında Türkiyə kimi, Rusiya da maraqlıdır. Daha böyük layihələrin reallaşmasına yaşıl işıq məhz Zəngəzurda yandırılacaq.

**Siyasi replika**

# XOF

## Azərbaycan və Ermənistan XİN başçılarının Tehran təmasına sözardı

**Azərbaycan və Ermənistanın xarici işlər nazirləri – Ceyhun Bayramovla Ararat Mirzoyan Tehranda görüşdü. Əlbəttə, bir-biri ilə zidd mövqedə dayanan iki Cənubi Qafqaz ölkəsinin baş diplomatının bir araya gəlməsi adi məsələ sayıla bilməz. Ancaq, nədənsə, Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan məsələnin adiliyinə eyham vuran açıqlama verib.**

Məlum olduğu kimi, nazirlərin ikili təması İranın paytaxtında “3+3” formatı ilə bağlı görüş çərçivəsində gerçəkləşib. O görüş ki, orada İran İslam Respublikası ilə yanaşı, Azərbaycanın, Türkiyənin, Rusiyanın və Ermənistanın XİN rəhbərləri bir araya gəliblər. Badalyanın açıqlaması göstərir ki, İrəvan sözügedən platformanı gərginliklərin aradan qaldırılması müstəvisi kimi görmür.

Bu məntiqin davamı kimi onu da bildirmək mümkündür ki, Qərbdə Azərbaycan və Ermənistan arasındakı konfliktli durumun hansı platformada yoluna qoyulmasının heç bir önəminin olmadığı ilə bağlı söylənilənlər mənasızdır. Önəm var. Belə olmasaydı, ABŞ-dan reaksiya gəlməzdi. Reaksiya verən isə Birləşmiş Ştatların Dövlət Departamentinin sözçüsü Metyu Millerdir. Deməli ki, “3+3” formatı Qafqaz platforması üzrə ayrıca düzən kimi qəbul olunur. Badalyanın dediyi isə göstərir ki, Ermənistan mövcud düzəni Qərb tənzimləmə xəttinə alternativ kimi görmür.

Digər yandan, çox güman ki, A.Mirzoyan Tehrana tamam başqa məqsədlə yollanmışdı. Ehtimal etmək mümkündür ki, Ermənistanın Qərbdəki dostları onu ora, bir növ, yalnız kəşfiyyat məqsədilə göndərmişdilər. Birdən-birə Azərbaycan XİN rəhbəri ilə görüş xoş qarşılanmaya bilər. Ona görə də Badalyan tələm-tələsik şəkildə Mirzoyanın, necə deyərlər, Qərbə badalaq gəlmək niyyətində olmadığını göstərmək istədi. Heç şübhəsiz, bu cür yanaşma İrəvanın öz aləmindəki sadiqliyinin nümayişidir.

Daha bir məqama nəzər salaq. Rusiya Azərbaycan və Ermənistan arasında vasitəçiliyə can atmaqdadır. Ancaq ölkənin bu mövqeyi İrəvan tərəfindən etirazla qarşılanır. Görünür, baş nazir Nikol Paşinyanın Qərbdəki dostları ona və Ermənistan rəsmilərinə Moskva ilə tənzimləmə təmaslarını qadağan ediblər. Məlumdur ki, “3+3” formatı üzrə əsas aktorlardan biri Rusiyadır. Yəni, İran və Türkiyədən fərqli olaraq Kreml məsələdə daha çox canfəşanlıq göstərməkdədir. Deməli, erməni tərəfinin fikrincə, Moskvanın təmsil olunduğu müstəvidə hansısa ciddi məqam nəzərdən keçirilə bilməz. Bunun da Qərbin diktəsi olduğunun sübuta ehtiyacı yoxdur.

Üzərində dayanmaq istədiyimiz başqa bir məqam isə budur ki, “3+3” formatı, hər bir halda, 44 günlük müharibədən sonrakı dövrün siyasi məhsuludur. Onun meydana çıxmasında başlıca rolu Azərbaycanın həmin müharibədəki qələbəsi oynayıb. Yəni, Bakı bu platformada üstünlüyə malikdir. Ermənistan isə mövcud düzəndə ölkəmizin xoş niyyətinin ifadəsi kimi təmsil olunmaqdadır. Badalyanın açıqlaması həm də bu niyyətə qeyri-adekvat yanaşmadan qaynaqlanmaqdadır. Yeri gəlmişkən, İrəvan destruktiv mövqeyini başqa platformalarda da göstərməkdədir.

O da məlumdur ki, “3+3” formatı ilkin olaraq, 2020-ci ilin sonunda Türkiyə tərəfindən təklif edilmişdi. Ankara bununla regional proseslərdə mühüm rol oynamaq məramını ortaya qoymuşdu və məsələ aktuallığını saxlamaqdadır. Ermənistan isə son dövrlər anti-Türkiyə ritorikasını gücləndirməkdədir. Deməli, Ankaranın fəal rol oynadığı platformada da Cənubi Qafqaz tənzimləməsinin gerçəkləşməsinə qarşı müqavimət var ki, heç şübhəsiz, bu da Qərbin Ermənistana göstərişidir.

Faktiki olaraq, İrəvan bu platformada yalnız gözdən pərdə almaq üçün təmsil olunur. Mövqeyini ortaya qoymur. Açıq mövqe ortaya qoyan isə Gürcüstandır. Yəni, faktiki olaraq rəsmi Tbilisinin Rusiya dirənişi “3+3”ü, “3+2” edir. Bu yanaşma anlaşılır, erməni tərəfinin “tülkülüyü” isə yox.

Bütün dediklərimizin fonunda bir ümumiləşmiş nəticə də var. Aydındır ki, “3+3” formatı regiondakı proseslərin müzakirəsi zamanı Qərbin iştirakını istisna edir. Eyni zamanda, Ermənistan Qərb platformalarının danışıqlar gündəmini fəal şəkildə təbliğ edir. Paradoks da budur: Azərbaycan bütün diplomatik uğurlarını Brüsseldə, Praqada və Qranadada (hətta getmədiyi yerlərdə - red) əldə edib, İrəvan isə Avropa İttifaqı platformasını təbliğ etməkdədir. Halbuki, onun “3+3” platforması müstəvisində səmimi ortamda çıxış etməsi yaxşı olardı. Görünür, səmimiyyət onluq deyil.

Əlbəttə, Azərbaycana Ermənistanla müzakirələr aparmaq baxımından platforma, vasitəçi fərqi yoxdur. Yetər ki, vasitəçilər tərəf tutmasınlar, ədalətli davransınlar. Ermənistan isə haqq-ədalətin deyil, avantürist ideyaların arxasınca sürünməkdədir. “3+3”də isə manipulyasiya keçmir. El misalımızda deyildiyi kimi, xain xoflu olar. Əslində, A.Badalyanın açıqlamasından duyulan da budur – xof.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 374** **Bakı şəhəri, 21 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə”də və 2010-cu il 26 yanvar tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının miqrasiya orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2148 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respub-likasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454; 2018, № 4, maddə 813, № 5, maddə 1127; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 477, № 11, maddə 1381; 2021, № 11, maddə 1258; 2022, № 2, maddə 172, № 3, maddə 268) ilə təsdiq edilmiş “Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları”nın 1.6-cı bəndindən “(Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi)” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 375** **Bakı şəhəri, 21 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” 2001-ci il 1 mart tarixli 52 nömrəli, “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında” 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli və “Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları”-nın təsdiq edilməsi barədə” 2011-ci il 12 may tarixli 79 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respubli-kasının 2022-ci il 20 dekabr tarixli 739-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209; 2002, № 3, maddə 148, № 10, maddə 635; 2005, № 7, maddə 678; 2006, № 5, maddə 472, № 10, maddə 902; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1360; 2014, № 12, maddə 1662; 2017, № 12 (II kitab), maddə 2526; 2018, № 12 (II kitab), maddə 2737; 2019, № 8, maddə 1478; 2020, № 6, maddə 804, № 11, maddə 1417, № 12 (V kitab), maddə 1584; 2021, № 10, maddə 1185; 2022, № 7, maddə 820, № 8, maddə 974; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 iyul tarixli 243 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8-ci bəndin birinci cümləsinə, 18-ci bəndin birinci abzasının birinci cümləsinə və 28-ci bəndin birinci abzasının birinci cümləsinə “təqdim olunmuş” sözlərindən sonra “(bu Qaydanın “Qeyd”inin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

1.2. 18-ci bəndin ikinci abzasına “təqdim etdiyi” sözlərindən sonra “(bu Qaydanın “Qeyd”inin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

1.3. 26-cı bəndin ikinci abzasına “məlumatlar” sözündən sonra “(bu Qaydanın “Qeyd”inin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

1.4. “Qeyd.” aşağıdakı redaksiyada verilsin:

“Qeyd. Bu əsas müddəalara uyğun olaraq vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik edilməsinə, vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpasına və ləğv olunmasına əsas verən sənədlərin (ləğv edilməli şəhadətnamələr istisna olmaqla) Elektron Hökumət İnforma-siya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Bu sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə 369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423, № 7, maddə 820, № 8, maddə 974; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 iyul tarixli 232 nömrəli, 27 iyul tarixli 243 nömrəli və 1 avqust tarixli 256 nömrəli qərarları) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.7-ci bənd üzrə:

2.1.1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı nəticəsində hüquqi əhəmiyyətini itirən sənədlər istisna edilməklə, bu Qaydada nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir.”;

2.1.2. üçüncü cümlə dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Bu sənədlərin və ya məlumatların EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

2.2. 1.12-ci bəndin ikinci abzasında “Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS)” sözləri “EHİS” akronimi ilə əvəz edilsin;

2.3. 2.2-ci bəndin beşinci abzasının birinci cümləsinə (ikinci halda) “barədə” sözündən sonra “məlumatlar” sözü əlavə edilsin, “informasiya sistemindən” sözləri “informasiya sistemində mövcud olduqda müvafiq məlumatlar həmin informasiya sistemindən” sözləri ilə əvəz edilsin;

2.4. 2.2-1-ci bənd üzrə:

2.4.1. birinci abzasına “təqdim olunmuş” sözlərindən sonra “(bu Qaydanın 1.7-ci bəndinin ikinci və üçüncü cümlələrinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

2.4.2. üçüncü abzasın birinci cümləsinə “sənəd” sözündən sonra “(bu Qaydanın 1.7-ci bəndinin ikinci və üçüncü cümlələrinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

2.5. 2.5-ci bəndə, 2.7-ci bəndin ikinci cümləsinə, 6.11-ci bəndə ismin müvafiq hallarında olan “sənədlər” sözündən sonra “(bu Qaydanın 1.7-ci bəndinin ikinci və üçüncü cümlələrinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

2.6. 2.7-1-ci bəndə “təqdim edilməsi” sözlərindən sonra “(bu Qaydanın 1.7-ci bəndinin ikinci və üçüncü cümlələrinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

2.7. 3.6-cı bəndə “təqdim etdikdə” sözlərindən sonra “(bu Qaydanın 1.7-ci bəndinin ikinci və üçüncü cümlələrinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451; 2012, № 12, maddə 1361; 2013, № 5, maddə 589, № 10, maddə 1205; 2018, № 8, maddə 1800; 2022, № 7, maddə 820, № 8, maddə 974; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 iyul tarixli 243 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları”nın “Qeyd”i ləğv edilsin və aşağıdakı məzmunda 6.9-1-ci bənd əlavə edilsin:

“6.9-1. Bu Qaydaların 6.9-cu bəndində nəzərdə tutulan sənəd-lərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 376** **Bakı şəhəri, 21 oktyabr 2023-cü il**

***“Viza blankının doldurulması Qaydası”nın, “Viza almaq üçün ərizə-anket”in nümunəsinin və “Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti”nin nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 732-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 318; 2016, № 5, maddə 944; 2018, № 5, maddə 1109, № 10, maddə 2141; 2019, № 1, maddə 170, № 5, maddə 954, № 12, maddə 2093) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Viza blankının doldurulması Qaydası”nın 1.2-ci bəndinə “təqdirdə” sözündən əvvəl “(Məcəllənin 36.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 377** **Bakı şəhəri, 23 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 10 iyul tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş “Notariat qaydasında təsdiq edilmiş sənədlərə bərabər tutulan sənədlərin müvafiq vəzifəli şəxslər tərəfindən təsdiq edilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, “Notariat haqqında”, “Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında” və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 867-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 iyun tarixli 2166 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 10 iyul tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 563; 2005, № 11, maddə 1061, № 12, maddə 1228; 2008, № 8, maddə 787; 2012, № 7, maddə 775, № 12, maddə 1353; 2019, № 3, maddələr 513, 565; 2021, № 10, maddə 1185) ilə təsdiq edilmiş “Notariat qaydasında təsdiq edilmiş sənədlərə bərabər tutulan sənədlərin müvafiq vəzifəli şəxslər tərəfindən təsdiq edilməsi Qaydası”nın III bölməsinin 1-ci hissəsinin beşinci abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 378** **Bakı şəhəri, 24 oktyabr 2023-cü il**

***“Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 aprel tarixli 73 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 aprel tarixli 73 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 319; 2004, № 1, maddə 51, № 7, maddə 589, № 11, maddə 970; 2005, № 7, maddə 677; 2006, № 9, maddə 830; 2007, № 5, maddə 544; 2008, № 2, maddə 124; 2009, № 11, maddə 937; 2010, № 4, maddə 359; 2011, № 12, maddə 1260; 2014, № 4, maddə 460, № 5, maddələr 565, 593; 2016, № 6, maddə 1212; 2017, № 9, maddələr 1738, 1763; 2018, № 10, maddə 2146; 2019, № 3, maddə 512, № 4, maddə 776; 2021, № 12, maddə 1535; 2022, № 4, maddə 423, № 6, maddə 666) 1.3-cü bəndində “Polis Akademiyasının” sözləri “xüsusi təyinatlı təhsil müəssisələrinin əməkdaşı olan” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Milli Məclisin iclası

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirildi.**




Cari məsələlərdən sonra S.Qafarova iclasın gündəliyinə 16 məsələ daxil edildiyini diqqətə çatdırdı. Dedi ki, gündəliyin ilk 12 məsələsi üçüncü, 3 məsələsi isə ikinci oxunuşda təqdim olunan qanun layihələridir. Komitə sədrləri ikinci oxunuşdan sonra qanun layihələri barədə komitələrə hər hansı rəy və ya təklif daxil olmadığını bildirdilər.

“Dövlət rüsumu haqqında” Qanuna dəyişikliyə əsasən, fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün Azərbaycana gətirilən mobil cihazların qeydiyyata alınmasına dövlət rüsumunun dərəcələri azaldılacaq.

Valideyn himayəsindən məhrum olmuş 18 yaşına çatan şəxslər üçün yeni güzəşt tətbiq olunmasına dair layihə də son oxunuşda qəbul edildi. “Sosial xidmət haqqında” Qanuna edilən dəyişikliyə əsasən, həmin şəxslər çətin şəraitə düşmüş insanlar kateqoriyasına aid olunacaq və onlar da mənzil alana qədər dövlət müəssisələrində yaşayış yeri ilə təmin olunacaqlar.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Qanuna qəyişiklik edilməsi haqqında sənədi birinci oxunuşda təqdim etdi. Dəyişikliyə əsasən, Azərbaycanda yetkinlik yaşına çatmayanları pornoqrafiya tamaşalarında iştirak etməyə cəlb edənlər, o cümlədən öz vəzifələrini üzürlü səbəblər olmadan yerinə yetirməyən valideynlər cəzalandırılacaqlar.

* * *

**Oktyabrın 24-də Milli Məclisin Sədri Sahibə Qafarova Bakıda keçirilən “2023-cü il Qlobal Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Sammitinin Nəticələri və DİM-lərin həyata keçirilməsində ali audit qurumların rolu” adlı 3-cü DİM Dialoqunun iştirakçıları ilə görüşüb.**

“Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Ali Audit Qurumlarının rolu”na dair Bakıda keçirilən tədbirin aktual mövzuya həsr edildiyini bildirən S.Qafarova tədbirin həm Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasına, həm də bu audit qurumları arasında əməkdaşlığın gücləndirilməsinə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Görüşdə Türkiyə, Qırğızıstan, Braziliya və Belarusun Hesablama Palatalarının sədrləri Metin Yener, Almazbek Akmatov, Ualton Alenkar Rodrigez və Dmitri Basko Azərbaycanda olmalarından məmnunluqlarını ifadə ediblər.

* * *

**Korsika xalqının öz milli kimliyinin bərpa edilməsi, fundamental hüquq və azadlıqlarının təmin olunması istiqamətində mübarizəsinə dəstək məqsədilə Azərbaycan Respublikası Milli Məclisində yeni qrup yaradılıb.**

Qrupunun məqsədi Korsika xalqının haqlı tələblərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, Fransa müstəmləkəçiliyinin dağıdıcı təsirlərinə qarşı mübarizəsi uğrunda beynəlxalq səylərin birləşdirilməsidir.

Qrupa Milli Məclisin deputatları Tural Gəncəliyev, Cavanşir Feyziyev, Şahin İsmayılov və Azər Kərimli daxildir.

***Ə.BƏDƏLOV***
***XQ***

# Kredit qoyuluşu 16 faizdən çox artıb

**Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2023-ci il oktyabr ayının 1-nə ölkə iqtisadiyyatına banklar tərəfindən kredit qoyuluşları 22 milyard 282 milyon manat təşkil edib. Bu, cari il sentyabr ayının 1-nə olan göstərici ilə müqayisədə 2,1 faiz çoxdur.**

Ötən ilin eyni dövrü ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşları 16,3 faiz və ya 3 milyard 125 milyon manat artıb. Belə ki, 2022-ci ilin oktyabr ayının 1-nə kredit qoyuluşlarının həcmi 19 milyard 157 milyon manat təşkil edib.

***XQ***

# Ermənistan Rusiyaya nota verib

**Rusiyanın İrəvandakı səfiri Sergey Kopırkin Ermənistan Xarici İşlər Nazirliyinə çağırılıb.**

2023-cü il oktyabrın 23-də Rusiyanın “Birinci kanal”ında yayımlanan proqramda Ermənistanın yüksək rütbəli məmurlarına qarşı tamamilə qəbuledilməz bəyanatlar səsləndirilib.

Görüş zamanı səfirə müvafiq etiraz notası verilib.

***XQ***

# Sülh, yoxsa müharibə?

## Fransa regionda birincinin yox, ikincinin toxumlarını səpir



*(əvvəli 1-ci səhifədə)*

Ermənistanla Azərbaycan arasında 30 ildən çox davam edən münaqişənin baş verməsində Fransanın oynadığı məkrli, qızışdırıcı rol Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışı zamanı toxunduğu mühüm məsələlərdən biri oldu: "1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvlüyündən çıxarıldı. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı? Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər. Bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə bu binada oturanlar erməni və Azərbaycan xalqlarının bütün faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər".

İqamətgahı Fransa ərazisində (Strasburq şəhərində) yerləşən Avropa Parlamenti də daha çox rəsmi Parisin təsiri ilə ölkəmizə hücumlar edir. Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ iqtisadi rayonundan erməni əhalinin könüllü gedişi ilə bağlı oktyabrın 5-də ilk dəfə qərəzli qətnamə qəbul edən də Avropa Parlamenti oldu. Öz növbəsində Avroparlament də Avropanın bəzi ölkələrinin ali qanunverici orqanlarının birtərəfli və obyektivlikdən uzaq qətnamələr qəbul etməsi üçün bir növ, oryentir rolunu oynadı. Onu da qeyd edək ki, Avropa Parlamenti ilk dəfə hələ Sovet İttifaqının mövcud olduğu dövrdə – 1989-cu ildə Ermənistan–Azərbaycan münasibətləri barədə qətnamə qəbul etmişdi. Ötən müddətdə baş verən hadisələr, yeni qərəzli qətnamələrin siyasi dövriyyəyə buraxılması Avroparlamentin zərrə qədər də dəyişmədiyini göstərir.

Fransa hazırda Ermənistanı silahlandırmaq işinə girişib. Oktyabrın 23-də Parisdə iki ölkənin müdafiə nazirləri – Suren Papikyan və Sebastyan Lekornyu "Thales" şirkətinin istehsalı olan üç ədəd "GM 200" radarının alqı-satqısına dair müqavilə və gələcəkdə Fransanın "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu imzalayıblar.

İmzalanma mərasimindən sonra nazirlərin birgə keçirdikləri mətbuat konfransında çıxış edən Sebastyan Lekornyu Fransanın üç radar satışı və gələcəkdə "Mistral" zenit-raket komplekslərinin tədarükü ilə bağlı imzalanacaq müqavilə vasitəsilə Ermənistana hava hücumundan müdafiə potensialını təkmilləşdirməyə kömək etdiyini bildirib. "Səmanın qoruması müstəsna əhəmiyyət daşıyan məqamdır", – deyə fransız nazir bildirib. Lekornyu qeyd edib ki, Fransa, həmçinin Ermənistana quru qoşunlarını hazırlamağa kömək edəcək, ölkənin silahlı qüvvələrinin islahatlarını və modernləşdirilməsi səylərini dəstəkləyəcək.

Onu da qeyd edək ki, Fransa və Ermənistan bir-biri ilə ziddiyyətdə olan hərbi-siyasi bloklarda təmsil olunurlar. Fransa NATO-nun, Ermənistan isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Ancaq görünən odur ki, bu məqam da İrəvana fransız silahlarının alınmasına mane olmur. Mətbuat konfransında mövcud xüsusda fikirlərini açıqlayan S.Lekornyu deyib: "Biz Ermənistanla eyni hərbi və siyasi ittifaqların bir hissəsi olmasaq da müdafiə sahəsində əlaqələrimizi dəstəkləyirik. Bu əlaqələr sadə prinsipə əsaslanır: özünü qorumağı bacarmalısan".

Burada bir haşiyə çıxaq. Altı-yeddi il öncə ABŞ NATO çərçivəsində müttəfiqi, alyansın yaranmasından cəmi 3 il sonra (1952-ci ildə) onun üzvü olmuş Türkiyəyə "Patriot" zenit-raket kompleksi satmaqdan imtina etmişdi. Nəticədə Ankara ölkənin səmasını qorumaq üçün Rusiyadan "S-400" zenit-raket kompleksləri almaq məcburiyyətində qalmışdı. Beləliklə, Türkiyə Rusiyadan bu kompleksləri alan ilk NATO dövləti olmuşdu. Bundan sonra ABŞ hökuməti bağlanmış müqavilədə nəzərdə tutulduğuna zidd olaraq Türkiyəyə F-35 qırıcı təyyarələrini verməkdən imtina edərək onun əvəzində F-16 təyyarələri təklif etmişdi. Vaşinqton bəyan etmişdi ki, S-400 komplekslərini NATO sistemləri ilə birgə işlətmək mümkün deyil. Bu isə o deməkdir ki, Türkiyə raket əleyhinə vahid müdafiə sisteminin tərkib hissəsi funksiyasını yerinə yetirə bilməyəcək.

Ancaq maraqlıdır ki, Ermənistan–Fransa hərbi əməkdaşlığı zamanı belə məqamlar yada düşmür. Nədənsə, Fransa, onun Şimali Atlantika Alyansı üzrə müttəfiqləri, o cümlədən ABŞ Ermənistana veriləcək NATO silahlarının rus hərbçilərinin əlinə keçəcəyindən ehtiyat etmirlər. Bunun özü də Fransa başda olmaqla Qərbin ikili standartlarının, riyakarlığının və ikiüzlülüyünün daha bir göstəricisidir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

**– Burada böyük həcmdə silah-sursat alqı-satqısından söhbət getmir. Sadəcə, bunu geniş şəkildə təqdim edərək, fon yaratmağa çalışırlar. Düşünürəm ki, bu, Emmanuel Makronun auditoriyaya hesablanmış gedişidir. Onun məqsədi Fransada yaşayan 500 minə yaxın erməni mənşəli vətəndaşı seçici elektoratı kimi öz əlində saxlamaqdır. Bundan əlavə, nəzərə almaq lazımdır ki, Ermənistandakı silahların 90-95 faizi Rusiya istehsalıdır. Fransanın verəcəyi silahlar Rusiyanın silahları ilə adaptasiya olunaraq döyüşü idarəetmə sisteminə uyğun gəlməyəcək. Burada ciddi problemlər ortaya çıxacaq.**

**Ümumiyyətlə, Fransanın İrəvana silah satması regionda hərbi balansı Ermənistanın xeyrinə dəyişdirə bilməyəcək. Alacağı silahlar Ermənistanın problemlərini həll etməyəcək. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ermənistan bundan sonra illərlə silah alsa da, qarşı tərəfin cavabını vermək üçün ordumuzun gücü yetərlidir.**

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

**– Ermənistanla Azərbaycan arasında aparılan danışıqlarda sülhün əldə edilməsinə ümidlərin artdığı bir məqamda Fransanın keçmiş münaqişəni yenidən hansısa formada bərpa etmək cəhdləri müşahidə olunur. Rəsmi Parisin Ermənistanı müasir silahlarla təmin etməsi sülh prosesinə zərbə vuran və gərginliyin artmasına səbəb olan amildir.**

**Fransa həm işğal zamanı, həm 44 günlük Vətən müharibə dövründə, həm də ondan sonra Ermənistan ordusunu silah-sursatla təmin edib. Paris 2023-cü ildə İrəvandakı səfirliyində silah alqı-satqısını əlaqələndirmək üçün xüsusi hərbi attaşe təyin edib. Məlumatlar var ki, Fransa üçüncü ölkənin, yəni İranın ərazisindən istifadə etməklə döyüş texnikasını Ermənistana ötürüb. Deməli, Fransa Avropa İttifaqının silahların və təhlükəli yüklərin daşınmasını qadağan etdiyi İrana tətbiq olunmuş sanksiyaları pozaraq, bu ölkənin üzərindən Ermənistana silah daşıyıb.**

**Fransa hakimiyyəti nasist Almaniyası ilə ən sıx əməkdaşlıq edən ölkə kimi tarixə düşüb. Hazırda Prezident Emmanuel Makron Avropa İttifaqının təhlükəsizlik maraqlarına zidd gedərək, Çinlə əməkdaşlıq edir. Eyni zamanda, Aİ-nin enerji təchizatında mühüm rol oynayan Azərbaycan əleyhinə fəaliyyət göstərir. Beləliklə, bu, həm də Aİ-nin maraqlarına qarşı çıxmaqdır.**

**(əvvəli 4-cü səhifədə)**

Çünki Ermənistanın Fransa başda olmaqla Qərbdəki dəstəkçilərindən heç birinin bu platformada təmsil olunmaması onun üçün bir növ təklənmək anlamına gəlir. Müzakirələrdə Rusiyanın əsas təşəbbüskarlardan biri kimi çıxış etməsi isə Mirzoyanı daha çox narahat edirdi. Axı qarşıda İrəvanı Zəngəzur dəhlizinə nəzarət uğrunda Moskva ilə çətin "döyüş" gözləyir. Üstəlik, Kremlin maraqlarına qarşı gedəcəyi təqdirdə onun Şimal–Cənub transmilli marşrutuna qoşula bilməsi barədə rəsmi Tehranın təklifi göydən asılı qala bilər. Biz hələ perspektivdə həmin dəhlizin konkret hansı ərazidən keçməsi və ona nəzarət məsələsində Ermənistanı sağlam istiqamətə yönəldə bilsin.

Bu kontekstdən yanaşanda onu da qeyd etməliyik ki, "3+3" platformasının əsas üstünlüklərindən biri həm Şimal–Cənub marşrutu, həm də Şərq–Qərb istiqamətində olan kommunikasiya xətlərinin geniş müzakirəsi üçün burada iştirakçılara imkanların yaradılmasıdır. Azərbaycanın mövqeyindən yanaşsaq, bu format ümumi strateji kanallarımızın fövqündə bu gün müəyyən taktiki üstünlükləri əldə etməyə hesablanıb. Görünən odur ki, bu platformada müzakirə ediləcək mövzuların ağırlıq yükü iqtisadi xarakterlidir. Elə Rusiyanın baş diplomatı Sergey Lavrov da məşvərət toplantısının yekunlarına həsr olunmuş mətbuat konfransında verdiyi açıqlamasında vurğunu bunun üzərinə yönəltdi. Onun sözlərinə görə, Moskvanın "3+3"-ə təqdim etdiyi sənəddə bu platformada iqtisadi, enerji, ticarət, nəqliyyat, informasiya texnologiyaları, təbii sərvətlər, humanitar, mədəniyyət, təhsil və turizm sahələrində əməkdaşlığın perspektivləri barədə təkliflər öz əksini tapıb. "Tehran–23"-də əldə edilən razılaşmaya əsasən, hər bir iştirakçı ölkə xüsusi nümayəndə təyin edəcək. Və həmin nümayəndə qeyd olunan istiqamətlər üzrə milli ideyaları formalaşdıracaq.

Azərbaycan "3+3"lə bağlı milli ideyasını artıq ortaya qoyub. Bu ideyanın əsas prinsipləri şəffaflıq, bərabərlik və ədalətdir.

# "3+3"dən gözləntilər

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri,**
**siyasi analitik:**

"3+3" formatının tam işə düşməsi üçün Gürcüstan da ona qoşulmalıdır. Amma, Rusiyaya görə Tbilisi bu addımı atmaqdan çəkinir. Bundan başqa, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi imzalanmalıdır. Bu iki şərt aradan qalxandan sonra "3+3" platforması qarşısına qoyduğu hədəflərə çata bilər. Təəssüf ki, İrəvan sülh sazişinin imzalanmasını uzatdığına görə, Zəngəzur dəhlizinin açılması məsələsi də ləngiyir. Düzdür, İran üzərindən keçəcək dəhliz protokolu imzalanıb. Azərbaycanın maliyələşdirəcəyi avtomobil və dəmir yolunun keçəcəyi İranla da münasibətlərdə bəzi suallar cavabsız qalır. Onlar da öz həllini tapmalıdır.

Dəhlizlərin təhlükəsizliyi məsələsinə gəlincə, İran layihəsində elə bir problem yoxdur. Əsas sual Ermənistan ərazisindən keçəcək dəhlizin təhlükəsizliyi ciddi mübahisə mövzusudur. Rəsmi Bakı istəyir ki, bizim avtomobillərimizə və qatarlarımıza baxış həyata keçirilməsin. Ermənistan bunun əleyhinədir. O biri tərəfdən Rusiyanın hərbi kontingentini zonaya yerləşdirməsi Paşinyan hakimiyyətinin maraqlarına ziddir. İrəvan təhlükəsizliyinə təminatı Qərbdən almaq istəyir. Amma, bu, artıq bizim problemimiz deyil. Dediyimiz kimi, ortada sülh sazişi olmadığına görə, dəhlizin reallaşması da uzanır. Real görünəni dəhlizin İran ərazisindən keçməsidir. Bundan ötrü inşaat işlərinin aparılması bir yana, Tehran gərək Bakı ilə münasibətləri gərginləşdirməsin. Digər tərəfdən, Moskva İrəvanın təhlükəsizliklə bağlı Qərblə sövdələşməyə gedəcəyindən narahatdır.

Hayastanın arzularının indiki "qardaşı" İranın iddiaları ilə kəllə-kəlləyə gəlməsi ehtimalını demirik. Beləliklə, İrəvan xeyiri yenə Azərbaycandan və Türkyədən görə bilər. Xarici İşlər nazirimiz Ceyhun Bayramovun toplantıdakı çıxışında Ermənistana fürsəti əldən qaçırmamaq barədə çağırışı məhz bu kontekstdə qəbul olunmalıdır.

## Bakının prinsipləri dəyişməzdir

Bəli, "3+3" formatını Cənubi Qafqazda etibarlı sülhün bərqərar olması, bu prosesdə bölgənin böyük güclərinin maraqlarının nəzərə alınması baxımından ideal platforma saymaq olar. Əslində, bu, Azərbaycanı məqsədlərinə doğru daşıyacaq "lokomotiv–platforma"dır. Sadəcə olaraq, bu formatda əldə olunacaq bir sıra üstünlüklər Bakıya imkan verəcək ki,

***İmran BƏDİRXANLI***
***XQ***

# Ali audit qurumlarının rolu müzakirə olunub

**Dünən Bakıda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və BMT-nin birgə təşəbbüsü ilə 3-cü DİM Dialoqu keçirilib.**





"2023-cü il "Qlobal DİM Sammitinin nəticələri və DİM-lərin həyata keçirilməsində ali audit qurumlarının rolu" mövzusunda keçirilən tədbirdə Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ölkəmizdə DİM-ə nail olunması istiqamətində görülən işlər barədə məlumat verib. Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərinin və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasının DİM-lər ilə sıx uzlaşdığı diqqətə çatdırılıb.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva DİM üzrə bu ilin sentyabr ayında keçirilən sammitin öhdəliklərinə əsasən, inklüziv dayanıqlı inkişafa nail olmaq üçün BMT-nin bütün maraqlı tərəflərlə işləməyə davam edəcəyini bildirib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov DİM-lər üzrə səmərəlilik auditlərinin sayının artırıldığını, 2021–2022-ci illərdə 6 DİM-in seçilən audit mövzularında meyar kimi çıxış etdiyini, auditlərlə əhatə olunan indikatorlarda artımın müşahidə edildiyini qeyd edib.

Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının sədri, Braziliyanin Ali Audit Qurumunun sədr müavini Valton Alensar Rodriques keçirilən tədbirin dünya ölkələrinin ali audit qurumlarının DİM-lərin icrasında rolu barədə təcrübələrinin öyrənilməsi üçün uğurlu plarforma olduğunu vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə sıx əməkdaşlıq etdiyini bildirib, quruma fəaliyyətində uğurlar arzulayıb.

Müzakirələrdə Azərbaycan Mərkəzi Bankının baş direktoru Ziya Əliyev, maliyyə nazirinin müavini Azər Bayramov, Dünya Bankının Azərbaycandakı ölkə meneceri Ştefani Ştalmeyster və digər ölkələrdən olan ali audit qurumlarının, kommersiya banklarının və özəl sektorun nümayəndələri iştirak ediblər.

***XQ***

# Xarici investisiyalara "yaşıl işıq" yandırılıb

## Son 20 ildə ölkəyə 154 milyard dollar sərmayə cəlb edilib

*(əvvəli 1-ci səhifədə)*

İqtisadiyyat naziri Mikayıl Cabbarovun bir neçə gün bundan əvvəl mətbuata bildirdiyinə görə, hazırda ölkədə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müxtəlif layihələr həyata keçirilir, yaradılan Azərbaycan İnvestisiya Şirkəti də investisiya qoyuluşlarının təşviqi və qeyri–neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələrin icrasını uğurla davam etdirir. Qurum investisiya şirkətlərinin və portfel investorların layihələrinin müştərək maliyyələşdirilməsi, qeyri–neft sektorunda fəaliyyət göstərmək məqsədilə iri beynəlxalq təşkilatların ölkəyə cəlb olunması, yerli şirkətlərin beynəlxalq kapital bazarlarında iştirakının gerçəkləşdirilməsi, iri maliyyə təşkilatlarının iştirakı ilə birgə investisiya fondlarının yaradılması və digər istiqamətlərdə mühüm layihələr reallaşdırır.



xarici investorların "bir pəncərə" prinsipindən yararlanmasına ciddi diqqət yetirilir, onlara müxtəlif istiqamətlərdə dəstək verilir. Birbaşa xarici investisiyaların təşviqi məqsədilə hazırlanan strategiyanın isə yaxın vaxtlarda təsdiqi gözlənilir.

Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, dövlət başçısı İlham Əliyev prezidentlik fəaliyyətinə başladığı ilk vaxtlardan etibarən xarici investisiyanın ölkəyə cəlbini sürətləndirmək üçün qanunvericiliyin müasirləşdirilməsi, yeni rəqəmsal həllərin tətbiqi önə çəkilib.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsinə təsir göstərən əsas amillərdən biri də mövcud sahədə qanunverici–institusional tədbirlərin həyata keçirilməsidir. Bu baxımdan 1995-ci il 13 yanvar tarixli "İnvestisiya fəaliyyəti haqqında" Qanun böyük əhəmiyyətə malikdir. Bu sənəd investisiyaların ölkə iqtisadiyyatına cəlbini stimullaşdırmaqla yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bununla bərabər, "Xarici investisiyaların qorunması haqqında" Qanun da ölkədə sərmayədarların hüquq və mənafelərinin qorunması, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılması ilə bağlı məsələləri tənzimləyir.

Prezident İlham Əliyevin 2006-cı il 30 mart tarixli sərəncamı ilə

Bu və digər tədbirlərin nəticəsində 2003-2022-ci illərdə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların ümumi həcmi 310,4 milyard dollara yüksəlib, həmin göstəricinin, təxminən, yarısı–154,1 milyard dolları isə xarici investisiyalar olub.

Qeyd edək ki, bu gün ölkə iqtisadiyyatına sərmayə qoyuluşunda dinamik artım nəzərə çarpır. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–sentyabr aylarında əsas kapitala 12 milyard manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 21 faiz çox vəsait yönəldilib. Son 1 ildə neft-qaz sektoruna investisiyalar 18,1 faiz, qeyri–neft–qaz sektoruna investisiyalar isə 23,2 faiz artıb. Bu ilin ilk yarısında xaricdən cəlb olunan investisiyaların ümumi məbləği isə 3 milyard dollar, xaricə yatırılan sərmayələrin həcmi isə 0,6 milyard dollar olub. Ölkə iqtisadiyyatı qoyulan birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 75,9 faiz təşkil edib. 2023-cü ilin yanvar-avqust aylarında xarici ölkələr və beynəlxalq təşkilatların əsas kapitala yönəltdikləri vəsaitin 2 milyard 285 milyon manatı (90,4 faizi) Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Yaponiya, Rusiya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olub.

Burada bir cəhəti də qeyd edək ki, son vaxtlar respublikada xarici investorlar tərəfindən bərpaolunan enerji mənbələrinə daha çox maraq göstərilir və xarici şirkətlərin kapitalının bu sahəyə cəlbi istiqamətində mühüm uğurlar əldə edilir. Fars körfəzi ölkələri, eləcə də Böyük Britaniya sərmayədarlarının "yaşıl enerji" layihələrinin icrasında fəaliyyəti bu baxımdan xüsusilə diqqət çəkir. Belə ki, həmin investorlar tərəfindən yaxın gələcəkdə respublikada günəş və külək stansiyalarının tikintisinə, sənaye, aqrar-sənaye kompleksi və İT sənayesi sahələrinə böyük məbləğdə birbaşa investisiya qoyulacağı gözlənilir.

Mütəxəssislərin fikrincə, dünyanın aparıcı şirkətlərinin Azərbaycan iqtisadiyyatının kapitallaşmasında iştirakı son dərəcə vacib məqamdır, çünki bu, maliyyə resursları ilə yanaşı, rəqabətqabiliyyətli və xaricdə tələbat olan məhsulların yerli istehsalına yeni texnologiyaların cəlbini şərtləndirir.

**Vaqif BAYRAMOV**
**XQ**

### Ekspert rəyi



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, fəlsəfə doktoru**

İnvestisiya qoyuluşunun davamlı olmasını şərtləndirən məqamlar sırasında deyərdim ki, ölkəmizdə yaradılan sabitlik, milli həmrəylik kimi amillər önəmli rol oynayır. Xarici sərmayədarların respublikamıza genişhəcmli investisiya qoymaq marağı da daha çox bundan irəli gəlir.

Azərbaycanda iqtisadi artımın getdikcə yüksəlməsi, qeyri-neft sektorunda nəzərə çarpan müsbət tendensiyalar, eləcə də biznesin davamlı olaraq şəffaflaşması da investisiya qoyuluşuna ciddi töhfə verir. Bu məsələdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin təmin edilməsi, cəmiyyətdə vergi mədəniyyətinin formalaşması əsaslı rol oynayır. Yeri gəlmişkən, bu gün əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, şəffaf münasibətlərin qurulması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımlar da xüsusi diqqət çəkir.

İqtisadiyyata investisiya qoyuluşundan bəhs edərkən, bir məqama da toxunmaq istərdim. Son illər ölkədə sənayeləşmə siyasətinə uyğun olaraq, innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənayenin inkişafına təkan vermək məqsədilə yaradılan sənaye zonalarına investorlar tərəfindən böyük maraq göstərilir. 2023-cü ildə qeydiyyata alınmış rezidentlər tərəfindən bu sahəyə, ümumilikdə, 250 milyon manatdan artıq investisiyanın yatırılması bu fikrin bariz ifadəsidir.

Xatırladım ki, indiyədək sənaye zonalarında 10 milyard manatdan çox məhsul istehsal edilib ki, bunun 3 milyard manatdan çox hissəsi ixrac olunub. İxrac "Made In Azerbaijan" brendi adı ilə 60-a yaxın ölkəyə məhsul göndərilib. Qarabağın bərpası, dirçəldilməsi və sənaye potensialının inkişaf etdirilməsi məqsədilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında da indiyə qədər investisiya kapitalı 200 milyon manatdan çox olan 31 sahibkarlıq subyektinə rezidentlik və qeyri-rezidentlik statusu verilib. Bu sahibkarlıq subyektlərində 2 mindən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyevin oktyabrın 23-də Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirakı zamanı burada həyata keçirilən layihələrə xarici investorlar tərəfindən böyük maraq göstərildiyi diqqət çəkib.

Azərbaycanda yaradılan ilk, Cənubi Qafqazda isə ən böyük müəssisə olan və 583,5 hektar ərazini əhatə edən Sumqayıt Kimya Sənaye Parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsullar istehsal olunur. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyekti–rezident fəaliyyət göstərir.



# İllik xarici borc azalır

**Rəsmi proqnozlarda "2024-2027-ci illərdə xarici dövlət borcunun 8 milyard 898,7 milyon manat (5 milyard 234,5 milyon dollar) və ya ÜDM-in 7,5 faizi həcmində, daxili dövlət borcunun isə 2024-cü ilin sonuna 18 milyard 779,4 milyon manat və ya ÜDM-in 15,9 faizi həcmində olacağı gözlənilir.**

Gələn ilin sonuna isə Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 27 milyard 678 milyon manat səviyyəsində olacağı proqnozlaşdırılır və 118 milyard 383,3 milyon manat məbləğində gözlənilən ÜDM-in 23,4 faizini təşkil edəcək.

Qeyd edək ki, cari ilin sonuna Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 26 milyard 803,6 milyon manat səviyyəsində olacağı gözlənilir. Bu, 119 milyard 650 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 22,4 faizini təşkil edəcək. Həmin dövrdə xarici dövlət borcu 10 milyard 848,2 milyon manat (6 milyard 381,3 milyon dollar) və ya ÜDM-in 9,1 faizi həcmində, daxili dövlət borcu isə 15 milyard 955,4 milyon manat və ya ÜDM-in 13,3 faizi həcmində olacağı proqnozlaşdırılır.

Beləliklə, ümumilikdə, yeni çağırışlarla əlaqədar yaranan əlavə maliyyə tələbatının təmin edilməsi üçün icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinin hədəflənən yuxarı həddinin 2024-cü ilin sonuna 24 faiz müəyyənləşdirilməsi, ortamüddətli dövrün sonuna (2027-ci il) 17,5 faiz, dövlət borcunun ÜDM-ə nisbət göstəricisi üzrə isə 2027-ci ilin sonuna hədəflənən yuxarı həddinin 30 faiz səviyyəsində olması təklif edilir.

# 9 ayda neft-qaz sektorunda ÜDM ikiqat artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ümumi daxili məhsul (ÜDM) neft-qaz sektorunda cari ilin yanvar–sentyabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 98,5 faiz artaraq 34 milyard 647 milyon manat olub.**




İqtisadiyyatın neft-qaz sektorunda isə əlavə dəyər 1,5 faiz azalıb.

Xatırladaq ki, son 20 il ərzində (2003-2022) Azərbaycanda ÜDM 4 dəfə, adambaşına düşən ÜDM isə 3,2 dəfə artıb.

**XQ**

# "STAR" emal gücünü 13 milyon tona çatdıracaq

## SOCAR-ın bu müəssisəsi Türkiyədə neft məhsullarının 25 faizini istehsal edir

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Türkiyədəki investisiya müəssisəsi olan "STAR" Neft Emalı Zavodunun (NEZ) illik istehsal gücünü 2024-cü ildə 13 milyon tona çatdırmağı planlaşdırır.**



Bununla bağlı SOCAR-ın Türkiyədəki neft emalı və neft-kimyası bölməsinin rəhbəri, "Petkim Petrokimya Holdinq"in baş direktoru vəzifəsini icra edən Kənan Mirzəyev bildirib ki, yarandığı gündən "STAR" NEZ müəssisəsinin dizaynında optimallaşdırma imkanlarından istifadə etməklə aşağı investisiya ilə əhəmiyyətli güc artımına nail olunub. Bununla da zavodun gücü 10 milyon tondan 12 milyon tona çatdırılıb. Nəticədə həm "Petkim"in, həm də "STAR" NEZ-in mövcud bazar şərtlərinə və gözlənilən qlobal tendensiyalara uyğun perspektiv potensialı gücləndirilib.

Bildirilib ki, adları çəkilən müəssisələrin perspektiv potensialı qlobal iqtisadi və siyasi dinamikadan asılı olaraq dəyişə bilər. Lakin buna baxmayaraq bu şirkətlər öz uğurlu göstəricilərini qoruyub saxlayır və böyüməyə davam edir. Bu fikrin təsdiqi olaraq bildirək ki, Türkiyənin emal olunan neft məhsulları istehsalının, təxminən, 25 faizini təşkil edən və 19,5 faiz daxili bazar payında sahiblik statusu daşıyan "STAR"ın 2022-ci il fəaliyyəti bu gün rentabelli göstəricilərlə xatırlanır. Bu dinamika cari ildə də davam edir. Xüsusilə, "Brent" və regiondakı digər neft markaları arasındakı qiymət fərqi müəssisəyə xammal baxımından müsbət təsir göstərir və bu, perspektivdə müsbət nəticələr əldə etmək əminliyi yaradır.

Lakin o da vurğulanır ki, hazırda dünya bazarlarında tələbin durğunluğu və əksər neft-kimya məhsullarına təklifin həddən artıq çox olması cari ilin birinci yarısında "Petkim"in fəaliyyətinin zəifləməsinə səbəb olub. Hazırda isə qiymətlərin yüksəlməsinin nafta və "Petkim"in digər məhsullarının bahalaşmasına səbəb olduğu üçün şirkətin kapital gəlirləri optimallaşdırma strategiysı baxımından daha müsbət nəticələrin əldə edilməsini şərtləndirib.

"SOCAR Türkiye" 2024-cü ildə "STAR" NEZ-in fəaliyyətini təmir işləri aparmaq üçün dayandırmağı planlaşdırır. Eyni zamanda, müəssisədə bundan sonra texniki qulluq məqsədilə müvəqqəti fasilə yaradılmasının dövriliyini dörd ildən beş ilədək artırmaq nəzərdə tutulur. Belə qərarın isə zavoda 40 milyon dollarıdək qənaət etməyə imkan verəcəyi proqnozlaşdırılır.

Qeyd edək ki, Türkiyədə özəl sektor tərəfindən yatırılan ən böyük investisiya layihəsi olan "STAR" NEZ qardaş ölkənin qərbində, İzmir şəhərinin yaxınlığında yerləşən Əliağa liman bölgəsində 2018-ci il oktyabrın 19-da istifadəyə verilib və "Azeri Light", "Kərkük" və digər neft növlərinin emalı üçün nəzərdə tutulub. Başqa sözlə, zavodun qurulmasında əsas məqsəd "Petkim" neft-kimya kompleksinin nafta ehtiyacının aradan qaldırılması və Türkiyənin idxaldan asılı olduğu digər məhsulların istehsalını gerçəkləşdirmək olub.

2014-cü ilin iyun ayında NEZ-in səhmdarları, aralarında kommersiya bankları və kredit agentliklərinin də olduğu 23 maliyyə qurumu ilə layihənin maliyyələşdirilməsinə dair kredit sazişləri imzalanıb. Bu, Türkiyənin real sektoru tarixinin ən böyük və ən uzunmüddətli maliyyələşdirmə sazişi kimi qeydə alınıb. İnvestisiya dəyəri 6,3 milyard dollar olan layihənin 3,3 milyard dollarlıq hissəsi kreditlər, qalan hissəsi isə kapital qoyuluşu və daxili mənbələr hesabına maliyyələşdirilib. Layihə nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən "İlin ən uğurlu layihə maliyyələşməsi", "Ən uğurlu ixrac maliyyələşməsi" kimi bir sıra mükafatlara layiq görülüb.

Türkyənin ilk Strateji İnvestisiyaların Təşviqi Sənədinə sahib olan "STAR" NEZ-in mühəndislik, satınalma və inşaat işlərini "Tecnicas Reunidas" (İspaniya), "Saipem" (İtaliya), "GS Engineering & Construction Corp" (Cənubi Koreya) və "Itochu" (Yaponiya) şirkətlərindən ibarət konsorsium həyata keçirib. İnşaat işlərinin pik mərhələsində layihənin icrasına 14 ölkədən 19 min 500 nəfər işçi, o cümlədən, təqribən 3 min mühəndis cəlb olunub. 2018-ci il avqustun 3-də "STAR" NEZ-ə "Abşeron" tankeri ilə 80 min ton "Azeri Light" markalı ilk xam neft göndərilib.

"SOCAR Türkiye" qardaş ölkədə kommersiya fəaliyyətinə 2008-ci ildə "Petkim"in səhmlərinin 51 faizini satın aldıqdan sonra başlayıb. Tərkibinə öz sinfində ən yaxşı şirkətlər olan "Petkim", "TANAP", "STAR Refinery", "SOCAR Terminal", "Petkim RES" (külək elektrik stansiyası), "Bursagaz", "Kayserigaz", "Enervis", "SOCAR Enerji Ticaret", "Millenicom", "SOCAR Ticaret" və "SOCAR Depolama" daxildir.

Sonda bildirək ki, "STAR" Neft Emalı Zavodu Türkiyə iqtisadiyyatının sabitləşdirilməsində önəmli rol oynayır. Müəssisədə il ərzində 5 milyon ton dizel yanacağı istehsal olunur. Bu da qardaş ölkənin xaricdən idxal etdiyi eyni növ məhsulun 40 faiz, mayeləşdirilmiş qazın isə 70 faiz aşağı düşməsinə gətirib çıxarırmaqla Türkiyə iqtisadiyyatının dinamizmini gücləndirir. Bütövlükdə isə bu nəhəng layihə iki qardaş ölkənin iqtisatiyyatının qarşılıqlı inteqrasiya etməsi və inkişafı üçün ciddi fundamental əsas yaradır.

**XQ**

# Laçında Ekoloji işçi qrupun iclası



**Laçın şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov Laçın şəhərinin bərpası və yenidən qurulması, gələcək inkişafının təmin edilməsi məqsədilə planlaşdırma və layihələndirmə, Zerti Aqro-Sənaye Parkının fəaliyyəti barədə məlumat verdi. Laçında aparılan tikinti-quruculuq, bərpa işləri çərçivəsində ekoloji məsələlərə xüsusi diqqət ayrıldığı qeyd olundu.

Prezident Administrasiyasının şöbə müdirinin müavini, İdarələrarası Mərkəzin Katibliyinin rəhbəri Nüsrət Süleymanov İdarələrarası Mərkəzin işi ilə bağlı, eləcə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Şərqi Zəngəzurda həyata keçirilən layihələr, Laçın şəhərinə əhalinin köçürülməsi və işlə təmin olunması ilə bağlı görülən işlər, hazırda icrası davam edən və planlaşdırılan genişmiqyaslı infrastruktur layihələrinin icra vəziyyəti barədə ətraflı məlumat verdi.

İşçi qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov nazirlik tərəfindən Laçın rayonu ərazisində həyata keçirilən ekoloji tədbirlər, o cümlədən meşəbərpa və yeni yaşıllıq sahələrinin salınması tədbirləri haqqında məlumat verildi.

İşğal dövrünə qədər rayon ərazisində qeydə alınmış 40 filiz və qeyri-filiz faydalı qazıntı yatağından 36-sı monitorinq və təftişə cəlb edilərək ehtiyatları yenidən qiymətləndirilib.

Laçın rayonu ərazisində müvafiq cihaz və avadanlıqlarla təchiz olunmuş 1 ədəd avtomatik radioekoloji stansiya quraşdırılaraq, istifadəyə verilmiş və 1 ədəd avtomat meteoroloji stansiyanın quraşdırılması planlaşdırılır.

İşğaldan azad edilmiş ərazilərdə ekosistemin bərpası məqsədilə meşəbərpa, yeni yaşıllıq sahələrinin salınması, xüsusi mühafizə olunan təbiət ərazilərində infrastrukturun bərpası tədbirləri ilə yanaşı fauna növlərinin reintroduksiyası layihələri də həyata keçirilir. Bu məqsədlə Laçın rayonu ərazisinə 5 Şahin quşu və 4 baş Şərqi Qafqaz turu, eləcə də Həkəriçay hövzəsinə 33 500 forel və çəki cinsli (ağ amur, ağ qalın alın) balıq körpələri buraxılıb. Laçın rayonunda 3600 ədəd müxtəlif cinsli ağac tingi əkilib və 100 kiloqram palıd toxumu səpilib. İşğaldan azad edilmiş ərazilərdə ümumilikdə 160 hektar sahədə 124 mindən çox ağac tingi əkilib, 3000 kiloqram palıd və Şərq çinarı toxumu səpilib, salınmış yaşıllıqların suvarılması məqsədilə damcılı suvarma sistemi quraşdırılıb. Həmçinin "Böyük Qayıdış I Dövlət Proqramı"nda 2024-2026-cı illərdə Laçın rayonunda 195,0 hektar meşə fondu sahəsində meşəbərpa tədbirləri planlaşdırılır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Faiq Mütəllimovun təqdimatında işğaldan azad edilmiş ərazilərdə dövri iqtisadiyyatın təmin edilməsi və təbii sərvətlərdən səmərəli istifadə olunması istiqamətində Ağdam rayonunun Kəngərli kəndinin bərpa və yenidən qurulması zamanı yaranan tikinti-söküntü tullantılarının təkrar emalına başlanıldığı qeyd olunub. Hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri nəticəsində tikinti və söküntü tullantılarının həcminin artması ilə əlaqədar Ağdam rayonunda başlanılan bu fəaliyyətin genişləndirilərək işğaldan azad edilmiş digər ərazilərdə də tətbiqi ilə bağlı tədbirlər görülür.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin İdarə Heyətinin sədri Mirsalam Qənbərov Laçın şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri, yol-infrastruktur layihələrinin icrası zamanı ətraf mühitə təsirlər, Füzuli–Şuşa yolunun və Zəfər yolunun kənarlarında yol tikintisi aparılan dövrdən qalmış ağac-kol tör-töküntülərinin yığışdırılması işinin təşkili, Laçın şəhərində infrastruktur layihələrinin icrası zamanı yaşıllıqların mühafizəsi və bərpası perspektivləri barədə məlumat verdi.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi tərəfindən Laçın şəhərində aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri barədə məlumat verildi. Laçın şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla 18 min nəfərin içməli su və kanalizasiya tələbatının ödənilməsinə hesablanmış içməli su təchizatı, yağış və tullantı sularının idarə olunması sisteminin yaradılması üzrə yeni layihə-smeta sənədləri hazırlanıb. Şəhərin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Sus kəndi yaxınlığındakı mövcud 6 subartezian quyusu bərpa edilir. Quyu zonasında nasos stansiyası, sutoplayıcı kamera, zərərsizləşdirici qurğu, anbar və digər yardımçı binalar tikilib. Nasos stansiyasında nasoslar, dayanıqlı elektrik təchizatı məqsədilə generator və 2 ədəd transformator quraşdırılıb. Su mənbəyindən Laçın şəhərinə içməli suyun verilməsi pilləli nasoslar vasitəsilə veriləcək. Bu məqsədlə quyu zonasında və magistral su kəməri üzərində nasoslar quraşdırılır. Su mənbəyindən Laçın şəhərinədək polad borularla 10 kilometr uzunluğunda magistral su kəməri inşa edilib. Mənbədən şəhərdəki anbarlara suyun ötürülməsi məqsədilə 3 nöqtədə nasos stansiyasının tikintisi yekunlaşmaq üzrədir.

Laçın şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, subartezian quyularının işçi vəziyyəti, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə tənzimlənəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədr müavini Azər Şükürov faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, müasir texnologiyalardan istifadə olunması, yol tikintisi işlərində tələb olunan xammal təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən tikinti-quruculuq işləri ilə bağlı daxil olan müraciətlər barədə məlumat verdi.

Elm və Təhsil Nazirliyinin Mikrobiologiya İnstitutunun baş direktoru, Ekoloji məsələlər üzrə işçi qrupun üzvü Pənah Muradov Qarabağda kəhrizlərin bərpası və su ehtiyatlarının idarə olunmasında onlardan istifadə perspektivləri barədə məlumat verdi.

Kosmik Agentliyin (Azərkosmos) nümayəndəsi tərəfindən işğaldan azad edilmiş ərazilərdə aparılan kosmik tədqiqatlar, o cümlədən peyk təsvirlərindən istifadə edilməklə Kəlbəcər və Laçın rayonları ərazisində yaşayış məntəqələri salınacaq ərazilərin mühəndis-geoloji, hidrogeoloji, seysmik-geoloji və iqlim şəraitinin qiymətləndirilməsi işləri, işğaldan azad edilmiş rayonlarda su ehtiyatlarının səmərəli istifadəsi məqsədilə mövcud su təsərrüfatı və meliorasiya obyektlərinin cari vəziyyətlərinin qiymətləndirilməsi barədə məlumat verildi.

İclasda, həmçinin aidiyyəti qurumlara Laçın–Şuşa yolunda ətrafa atılmış tullantıların yığışdırılması, Füzuli–Şuşa yolunun və Zəfər yolunun kənarlarında yol tikintisi aparılan dövrdən qalmış ağac-kol tör-töküntülərinin yığışdırılması işinin təşkil edilməsi, meşə yanğınlarının qarşısının vaxtında alınması üçün xəritələrin hazırlanması və su mənbələrinin yaradılması məqsədilə təxirəsalınmaz tədbirlərin görülməsi tapşırılıb.

Sonra iştirakçılar Zerti Aqro-Sənaye Parkının işi ilə tanış olublar.

***XQ***

# İstanbulda Qərbi Azərbaycan gerçəkliyi





**Oktyabrın 24-də İstanbulda "Qərbi Azərbaycan gerçəkliyi: tarixi həqiqətlər" mövzusunda konfrans keçirilib.**

Konfransın açılış mərasimində Altınbaş Universitetinin rektoru, professor Çağrı Erhan, Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva və Qərbi Azərbaycan İcmasının sədri, deputat Əziz Ələkbərov çıxış ediblər.

Konfrans panel iclasla davam edib. Çıxışlarda bildirilib ki, indiki Ermənistanın Respublikasının ərazisi olan Qərbi Azərbaycan tarixi Azərbaycan torpaqlarıdır. Vaxtilə burada yüz minlərlə Azərbaycan türkü yaşayıb. XIX əsrin əvvəllərində Çar Rusiyasının İrəvan xanlığını işğal etməsindən sonra bölgədə demoqrafik vəziyyətin məqsədyönlü şəkildə dəyişdirilməsinə başlanıb. Çar Rusiyasının həyata keçirdiyi demoqrafik siyasət nəticəsində İrəvan xanlığının ərazisinə və Qarabağa müxtəlif coğrafiyalardan ermənilər kütləvi şəkildə məskunlaşdırıldı.

Natiqlər ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə siyasətinə də toxunublar. Qeyd olunub ki, Sovet İttifaqı dövründə Ermənistanda azərbaycanlıların mədəni izlərinin məhv edilməsi ilə kifayətlənilmədi, yüz minlərlə azərbaycanlı bu torpaqlardan deportasiya olundu.

***XQ***

# Baş prokurorun Türkiyə səfəri başa çatıb

**Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında iştirak etmək üçün Ankara şəhərində işgüzar səfərdə olub.**



Səfər çərçivəsində Baş prokuror TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımla görüşüb. Yıldırım ölkəmizin ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini çatdırıb, hər iki ölkənin liderlərinin rəhbərliyi altında ölkələrimiz və xalqlarımız arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi və ondan sonrakı proseslərdə Türkiyə dövlətinin və xalqının siyasi və mənəvi dəstəyinə görə təşəkkürünü ifadə edib.

Kamran Əliyev Türkiyənin ədliyyə naziri, Hakimlər və Prokurorlar Şurasının sədri Yılmaz Tunç, Türkiyənin Baş prokuroru Bəkir Şahin, Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə də görüşüb.

Kamran Əliyev tədbirdə iştirak edən TDT-nin Baş katibi Kubaniçbek Ömüralıyev, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasının Baş prokurorları ilə də görüşlər keçirərək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.

Sonda Türk dövlətlərinin Baş prokurorları Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul ediliblər.

Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyətinin Ankaraya işgüzar səfəri başa çatıb.

***XQ***

# Vilayət Eyvazov xidmətə qəbulla bağlı sıra baxışı keçirib



**Oktyabrın 24-də Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 287 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 41 nəferi Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# Sülh müqaviləsi tezliklə razılaşdırıla bilər



**Oktyabrın 24-də Xarici İşlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüşdə Azərbaycan və Ermənistan arasında sülh prosesinin perspektivləri, regionda mövcud vəziyyət və son inkişaflar, eləcə də Tehranda "3+3" regional platforması çərçivəsində keçirilmiş görüşün nəticələri müzakirə olunub.

Nazir Ceyhun Bayramov, öhdəliklərə zidd olaraq son 3 il ərzində Azərbaycan ərazisindən çıxarılmayan qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın öz suveren ərazilərinə nəzarəti tam olaraq təmin etməsindən sonra Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin qısa müddətdə razılaşdırılması üçün real şansların olduğunu diqqətə çatdırıb.

Qarabağın erməni sakinlərinin Azərbaycanın qanunvericiliyi çərçivəsində ölkəmizin ərazisində Azərbaycan vətəndaşı kimi yaşaması üçün bütün imkanların yaradıldığı, bunun üçün reinteqrasiya məqsədilə müvafiq portalın fəaliyyət göstərdiyi qeyd edilib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

**Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı nazirlər Azərbaycanla Rusiya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, Azərbaycan–Ermənistan sülh prosesinin perspektivləri, bölgədəki cari vəziyyət, "3+3" regional platformasının Tehranda keçirilmiş nazirlər iclasının nəticələri, Xəzəryanı ölkələrin Xarici İşlər Nazirləri Şurasının cari ilin dekabr ayında Moskvada keçirilməsi nəzərdə tutulan iclasının gündəliyində duran məsələlər barədə fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar edilməsi istiqamətində real şansların olduğu, bölgədə yaranmış tarixi imkanın əldən verilməməsinin vacibliyi vurğulanıb. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

25 Oktyabr Qubadlı Şəhəri Günüdür

# Qəhrəmanlar yurdu övladlarını gözləyir

**2020-ci ilin 25 oktyabr günü xalqımızın tarixinə qızıl hərflərlə yazılıb. Belə ki, məhz həmin gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə Milli Ordumuzun igid əsgər və zabitləri Qubadlı şəhərini və ətraf kəndləri düşməndən azad ediblər. Bu, əlbəttə, son dərəcə qürurverici bir hadisədir.**




Bu gün həmin tarixi hadisədən düz üç il ötür. Qədirbilən xalqımız doğma Qarabağın hər bir qarış torpağı kimi, Qubadlının da azad olunmasında qeyri-adi şücaət, hünər və qəhrəmanlıqlar göstərmiş hərbçilərimizlə sonsuz fəxarət hissi duyurlar. Şəhidlərimizin ruhuna dualar oxuyur, qazilərimizə Allahdan şəfa diləyirik.

Qubadlının azad olunması ilə bağlı hərbi əməliyyat hərb tariximizin ən uğurlu əməliyyatlarından biri sayılır. Məlumdur ki, 2020-ci ilin payızında cəbhənin təmas xəttində davam edən erməni təxribatlarına cavab olaraq Ali Baş Komandanın əmri ilə II Qarabağ müharibəsi, yəni, Vətən müharibəsi başlamışdır. Müharibənin ilk günlərindən sonadək Azərbaycan Ordusu yüksək peşəkarlıq və qələbə əzmi nümayiş etdirib.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkib. Belə ki, Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra, təbii ki, növbəti istiqamət Qubadlı rayonu idi. Hərbi ekspertlər qeyd edirlər ki, dağların qoynunda yerləşən bu şəhərdə ermənilər güclü istehkamlar qurmuşdular. Yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə də Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi.

Azərbaycan Ordusu bu yüksək peşəkarlığı, və misli-bərabəri olmayan fədakarlığı göstərə bilibdir. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürülüb, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri düşməndən təmizlənib. Ondan sonra oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri Qubadlı şəhərinə daxil olaraq düşməni qovublar.

Azərbaycan dövləti cəbhənin Qubadlı istiqamətində əldə edilən bu uğuru əbədiləşdirmək qərarına gəlib. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 25 oktyabr Qubadlı şəhəri günü elan edilib.

**Qubadlı rayonunun nüfuzlu ziyalılarından olan Razim Əliyev fəxrlə bildirdi ki, dövlət başçımızın bu təşəbbüsü Qubadlı rayonun hər bir sakininin qəlbində dərin minnətdarlıq hissi doğurub:**

– Qubadlının bugünkü və gələcək nəsilləri bu qələbəni daim böyük sevinc və coşqu ilə qeyd edəcəklər. Bu gün Azərbaycan öz qədim tarixinin ən şanlı günlərini yaşayır. Biz, həqiqətən, qalib və xoşbəxt xalqıq!

Qeyd etmək lazımdır ki, Qubadlı ölkəmizin olduqca gözəl, əsrarəngiz təbiəti olan bir bölgəsidir. Uca dağları, sıx meşələri, sərin bulaqları, Həkəri və Bərgüşad kimi bol sulu çayları, bərəkətli torpaqları var Qubadlının. Amma buranın ən böyük sərvəti rayonun mərd, əməksevər insanlarıdır. Onlar bu yurdun tərəqqisi üçün daim fədakarcasına çalışıblar.

Yaxşı xatırlayıram, 1980-cı illərin sonunda erməni separatçılara Qarabağı Azərbaycandan ayırmaq niyyətinə düşəndə, Ermənistanla sərhəddə yerləşən Qubadlının kəndlərində yaşayan əhali üçün ciddi təhlükə yaranmışdı. O ağır dönəmdə Qubadlının qeyrətli oğulları könüllü müdafiə dəstələri yaradaraq doğma yurdun müdafiəsinə qalxmışdılar.

Birinci Qarabağ müharibəsində düşmənə qarşı qəhrəmancasına vuruşan igidlərimizdən biri də Kazımağa Kərimov idi. Pəhləvan cüssəli idi, amma çox sakit, həlim xasiyyəti vardı. Onu hələ tələbəlik illərindən, 1970-ci illərin ortalarından yaxından tanıyırdım. Belə ki, Kazımağa o illərdə mənim də tələbəsi olduğum Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alırdı, yataqxanadakı qonşu otaqda qalırdı.

Yadımdadır, Kazımağa doğma rayonu, anadan olduğu Sarıyataq kəndində yaşayan doğmaları, bu kəndin gözəl təbiəti barədə böyük həvəslə söz açardı. Valideynləri on bir uşaq böyüdüb tərbiyə etmişdilər. Kazımağa ailənin səkkiz oğul övladından biri idi. Deyərdi ki, Sarıyataq dünyanın ən gözəl kəndidir.

Universiteti bitirdikdən sonra Kazımağa bir müddət "Azərbaycan məktəbi" jurnalında, sonra isə “Azərbaycan müəllimi” qəzetində çalışdı. 1990-cı ilin əvvəllərində eşitdim ki, könüllü olaraq Qarabağ cəbhəsinə yollanıb. Əvvəlcə cəbhənin Göranboy, sonralar isə Tərtər istiqamətlərində gedən ağır döyüşlərdə əsl igidlik göstərdi. 15 iyun1992-ci ildə, ömrünün 41-ci baharında gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucaldı. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Məzarı Fəxri xiyabandadır.

Yeri gəlmişkən, Qaçaq Nəbinin vətəni olan Qubadlı rayonunda hər zaman igid, qeyrətli oğullar çox olub. Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin adı bu gün də dillər əzbəridir. Əliyar doğma yurdun düşməndən qorunması üçün çox igidliklər göstərib. Onun düşmənlə mübarizədə göstərdiyi qeyri-adi şücaətlər barədə hekayətləri eşidəndə insanın qəlbi köksünə sığmır.

Bu gün Qubadlı azaddır, xoşbəxtdir. Qubadlının düşməndən azad edilməsindən düz bir il sonra, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2021-ci il oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Dövlətimizin başçısı fəxrlə demişdir ki, bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Onlardan biri bizim əzizimiz Şükür Həmidovdur. Qubadlı rayonunun sakini olan Şükür böyük qəhrəmanlıq göstərmiş və doğma rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Prezident sonra bildirmişdir: “Şükür Həmidov bizim ən istedadlı və cəsarətli hərbçilərimizdən biri idi. O, Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərmişdi. Məhz bu qəhrəmanlığa görə mən ona Milli Qəhrəman adını verdim və özüm də şəxsən onu bu mükafatla təltif etdim. Ondan sonra keçmiş məcburi köçkünlərlə ilk görüş əsnasında onun atası Nəriman kişi ilə tanış oldum və bilmirdim ki, o, Şükürün atasıdır. Köçkünlər üçün salınmış bir şəhərciyin açılışında mənə dedi, mən də salamlarımı çatdırdım. ...Eşidəndə ki, Şükür həlak olub, bizim hamımızın ürəyi ağrıdı”.

Ali Baş Komandan onu da qeyd etmişdir ki, Şükür bütün hərbçilərimiz, gənc nəsil üçün nümunədir, öz canını doğma diyar uğrunda fəda edib və şəhadət zirvəsinə ucalıb. Şəhidlərimizin xatirəsi əbədiləşdirilir və əbədiləşdiriləcəkdir.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il noyabrın 26-da “Qubadlının azad olunmasına görə” medalı təsis edilib. Azərbaycan Respublikasının Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 15 min 189 hərbi qulluqçusu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə “Qubadlının azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

Düşməndən azad edilən Qubadlıda digər bölgələrimizdə olduğu kimi hazırda böyük tikinti-quruculuq işləri görülür. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş, 2022–2026-cı illəri əhatə edən “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış I Dövlət Prqoramı” uğurla icra edilir.

Hazırda Qubadlı istiqamətində bir-birindən rahat, gözəl yollar çəkilir, müvafiq infrastruktur qurulur. Şübhə yoxdur ki. ən yaxın aylar, illər ərzində Qubadlı sakinləri doğma yurd yerlərinə qayıdacaq, bu bərəkətli torpaqlarda qurub-yaradacaqlar.

Bu günlərdə 30 il əvvəl taleyinə qaçqınlıq yazılan qubadlılı köhnə tanışım, Mahruzlu kəndinin sakini Hacı Azər Qarayev ilə təsadüfən rastlaşdım. O, dərin əminlik hissilə dedi ki, bu dəfə qubadlılılar doğma yurdlarına əbədi qayıdacaqlar. Bundan sonra heç bir qüvvə bu elatı doğma yurddan perik sala bilməz. Azərbaycan kimi güclü və qüdrətli dövlətin vətəndaşı olmaq, həqiqətən, çox qürurvericidir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# “Taktiki savaş”da şərti düşmən məhv edildi

*(əvvəli 1-ci səhifədə)*

Hərbi Hava Qüvvələrinin təyyarə və helikopterlərinin uçuşlarının təhlükəsizliyini təmin etmək məqsədilə cəbhəboyu və dərinliklərdə hava və radiokəşfiyyat aparılaraq düşmənin hava hücumundan müdafiə vasitələrinin fəaliyyətinə maneələr yaradıldığı zaman şərti düşmən sahəsinə girmədən radioşüalanma vasitələrini, radiotexniki, radiokəşfiyyat və radiolokasiya vasitələrinin kəşfiyyatının aparılması və dinlənməsi,



onların növünün və yerinin təyini, tezlik və digər parametrlərinin aşkar edilməsi, həmçinin hava hücumundan müdafiə sistemlərinin məhv edilməsi fəaliyyətləri icra olundu.

Şərti düşmənin pilotsuz uçuş aparatları ilə mübarizə aparan bölmələrimiz xüsusi vasitə ilə radiomaneələr tətbiq edərək onun döyüş tapşırığını (kəşfiyyatın aparılması) yerinə yetirməsinə imkan verilməmək, geri qaytarılmaq və ya aldadılmaq tapşırığını icra etdi. Şərti düşmənin HHM vasitələri zərərsizləşdirildikdən sonra açılan hava dəhlizində F-16 qırıcı təyyarələri və digər hücum helikopterləri onun cəmləşmə məntəqələrinə aviasiya zərbələri endirdi.

Tank əleyhinə idarəolunan raket kompleksləri və düzünə tuşlamaya çıxarılmış T-90 tankları şərti düşmənin 1-ci eşelonunda yerləşən zirehli döyüş maşınlarını və mövqeləri məhv etdilər.

Bölmələrimizin mütəşəkkil irəliləməsini, düşmən üzərində atəş üstünlüyünün əldə olunması məqsədilə onun döyüş mövqelərinə, artilleriya və minaatan batareyalarına, KMM-lərinə, canlı qüvvə və atəş vasitələrinə kütləvi atəş zərbələri endirildi. Döyüşçülərimizin mütəşəkkil irəliləməsi təmin edildi, əldə olunmuş atəş üstünlüyü qorunub saxlanıldı, şərti düşmənin itirilmiş idarəetməni bərpa etməsinə imkan verilmədi. Təminat yollarında batareyaların zərbə hücumlarından sonra Azərbaycan və Türkiyə hərbçilərindən təşkil olunmuş taktiki qruplar və xüsusi təyinatlı qruplar hərəkətə keçdi.

Mühəndis bölmələri minalanmış sahələrdən keçidlərin açılmasından sonra birgə taktiki və xüsusi təyinatlı qruplar şərti düşmən mövqelərinə doğru irəliləyərək, onun məhv edilməsi və ön xəttinin ələ keçirilməsi fəaliyyətləri icra etdilər. Sonra 2-ci eşelon bölmələrinin hərəkəti başladı. Düşmənin dayaq məntəqələri ələ keçirildikdən sonra irəliləyən bölmələrimizin effektiv və fasiləsiz atəş dəstəyini təmin etmək məqsədilə minaatan batareyalarının əsas mövqeyindən ehtiyat atəş mövqelərinə tağımlarla yerdəyişmə prosesləri icra olundu. “Bayraktar TB-2” helikopteri vasitəsilə şərti düşmənin “İskəndər” və “Toçka-U” taktiki raket kompleksləri məhv edildi.



Bununla bərabər, düşmən mövqeləri piyada qüvvələr tərəfindən atəş və manevr üsulu ilə ələ keçirildi, onun tank əleyhinə silahlarını təsirsiz hala gətirməklə, tankların çevik və sürətli manevr qabiliyyəti ilə vurucu atəş gücündən, eləcə də tüstü pərdəsinin qoyulmasından faydalanaraq piyada döyüş maşınlarından (PDM) desantın endirilməsi fəaliyyəti icra olundu. Piyada manqaları düşmənin ön xətdə yerləşən canlı qüvvəsini ştat silahları ilə məhv etdi. Minalardan və düşmənin birbaşa atışlarından qorunmaq məqsədilə piyadalar texnikaların arxası ilə hərəkət edərək mövcud vəziyyətə görə irəli və ehtiyatlı şəkildə irəlilədi.

Hər iki ölkənin xüsusi təyinatlı qruplarından ibarət hava desantının vəzifəli şəxsi ələ keçirmək üçün şərti düşmən arxasına endirilməsi fəaliyyəti icra olundu. Qrupların hava yolu ilə düşmən arxasına endirilməsi və onun vəzifəli şəxsinin pusqu yolu ilə ələ keçirilməsi və yaşayış məntəqəsinin təmizlənməsi fəaliyyəti icra edildi. Hədəf bölgəsi ələ keçirildikdən sonra bölmələrimizin sonrakı tapşırıqlarının atəş dəstəyini təmin etmək, üstünlüyü saxlamaq məqsədilə artilleriya batareyalarının əsas atəş mövqeyindən ehtiyat atəş mövqeyinə taqımlarla yerdəyişməsi icra olundu.

Bütün təlim nöqtələrində sanitarların yaralı hərbi qulluqçuları təxliyə etməsi fəaliyyətləri icra olundu. Eləcə də, xüsusi təyinatlı qrupların uçuş məntəqəsində toplanması və hava yolu ilə təxliyə olunması icra edildi.

“Yüksək səviyyəli müşahidəçi günü”ndə silah və texnika sərgisinə baxış oldu. Qonaqlar Azərbaycan Ordusunun arsenalında olan zirehli döyüş maşınları, müxtəlif təyinatlı hərbi texnika, pilotsuz uçuş aparatları, digər hərbi vasitələrlə tanış oldular. “Yüksək səviyyəli müşahidəçi günü”ndə, həmçinin Türkiyənin “Roketsan”, “Havelsan”, “Aselsan”, “Baykar” və digər şirkətlərin stendləri də qonaqlara təqdim edildi.

“Mustafa Kamal Atatürk – 2023” birgə taktiki təliminin əhəmiyyəti haqqında danışan Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz XQ-yə dedi ki, birgə təlim bölgəni qarışdırmaq istəyən ölkələrə güclü mesajdır:

– Keçirilən təlim bölgəni qarışdırmaq istəyənlərin mövcud olduğu çətin geosiyasi şəraitdə Azərbaycanın yaratdığı yeni reallıqla barışmaq istəməyən Ermənistan, Fransa kimi ölkələrə verilən bir mesajdır. Digər tərəfdən təlimə Özbəkistan, Qazaxıstan, Tacikistan kimi ölkələrin yüksək vəzifəli nümayəndələrinin qatılması ona xüsusi bir məna qatırdı. Bununla bərabər, təlimlərin Naxçıvan, Bakı və düşmən işğalından azad edilən ərazilərdə keçirilməsi də xüsusilə diqqətçəkən məqamlardandır. Ordular çox zaman sülhün təmin edilməsi və qorunması üçün öz güclərini nümayiş etdirirlər. Azərbaycan və Türkiyə birgə hərbi təlimi də Cənubi Qafqazda sülhün davamlılığına xidmət edir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# “Boz zonalar” Azərbaycan işığına qərq olub

## *Qarabağ bütövlükdə ölkənin enerji şəbəkəsi ilə əhatə olunub*

**Bu gün işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması, nəqliyyat layihələrinin reallaşdırılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.**



Eyni zamanda, elektrik təchizatının qurulması istiqamətində sistemli tədbirlər reallaşdırılır, ən müasir texnologiyalar tətbiq olunmaqla, elektrik enerjisinə qənaət edən texnologiyalara və “yaşıl enerji”yə əsaslanan enerji layihələrinin icrası gerçəkləşdirilir. Düşməndən təmizlənən yaşayış sahələrinə ölkənin ümumi enerji sistemindən elektrik enerjisi verilməsi məqsədilə infrastruktur formalaşdırılır. Artıq yarımstansiyalar səmərəli fəaliyyət göstərir.

Belə yarımstansiyalardan biri də Şuşada yerləşir. Bu infrastrukturun adı son günlər Qarabağda suverenliyimizin tam bərpa olunması ilə bağlı hadisələr sırasında çəkilir. Bu barədə AMEA İqtisadiyyat İnstitunun şöbə müdiri Mahir Zeynalov deyir:

– 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə görüşü keçirildi. Görüşdə müzakirə edilən məsələlərdən biri də Xankəndinin Azərbaycanın elektrik enerjisi ilə təmin edilməsi idi. Bununla əlaqədar şəhərin Ermənistanın enerji sistemindən ayrılaraq ölkəmizin enerji sisteminə qoşulması reallaşdırıldı. Bunun üçün əvvəlcədən müəyyən işlər görülmüşdü. Hələ 2021-ci ildə “Azərenerji” tərəfindən tikilən və Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən “Şuşa” yarımstansiyasında Xankəndi üçün ehtiyat yuvalar quraşdırılmışdı.

2023-cü il sentyabrın 19-dan etibarən isə “Azərenerji” tərəfindən “Şuşa” yarımstansiyası yaxınlığında əlavə 110 kV-luq yüksək gərginlikli dayaqların quraşdırılmasına və Xankəndi xətti ilə əlaqələndirilməsi işinə başlanılmışdı. Görülən işlər nəticəsində proses yekunlaşmış və buna paralel olaraq “Azərenerji” və “Azərişıq” əməkdaşları ötürücü və paylayıcı şəbəkəni, mühafizə sistemlərini təftiş etdikdən sonra xəttə gərginlik verilmişdi.

Artıq Xankəndində bir aydır ki, Azərbaycan işığı yanır. Şəhərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması onun etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsini təmin edib. Ötən müddətdə Xankəndində fəaliyyət göstərən dövlət qurumları, səhiyyə obyektləri “Şuşa” yarımstansiyasından elektirik enerjisi alır.

Xankəndinə elektrik enerjisinin verilməsi istiqamətində digər tədbirlər də görülür. Ağdamdan Xankəndi istiqamətinə gedən yol elektrik enerjisi ilə təmin edilib. Belə ki, hazırda uzunluğu 1500 metr olan elektrik xəttinin çəkilməsi işi başa çatıb. 110/35/10 Kv-luq “Ağdam-2” yarımstansiyasından çəkilən elektrik xətti Ağdam–Əsgəran–Xankəndi yolunadək çəkilib. Yaxın vaxtlarda elektrik xətti Xankəndinə çatdırılacaq. Bundan sonra şəhər bir neçə istiqamətdən elektrik enerjisi ilə təmin ediləcək. “Azərişıq” ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadənin sözlərinə görə, respublikamızda ölkəmizin hər bir yerinin elektrik enerjisi ilə təmin edilməsi imkanı var. Bu, Xankəndinin bundan sonra daim işıqlı olacağından xəbər verir.

Burada sevindirici bir məqamı da xatırlatmaq istərdim. Belə ki, bir neçə gün əvvəl Xankəndində ilk cərrahi əməliyyat uğurla icra olunub. Bəli, öz işığımızda bir həyat xilas edilib. 1999-cu il təvəllüdlü Azərbaycan vətəndaşı qarın boşluğunda kəskin ağrılar, ürəkbulanma, halsızlıq şikayətləri ilə Xankəndi şəhərindəki tibb müəssisəsinə müraciət etdikdən sonra həkimlər tərəfindən zəruri müayinələr aparılıb, pasiyentə kəskin appendisit diaqnozu qoyularaq əməliyyat uğurla icra olunub. olunmasına qərar verilib. Vəziyyəti qənaətbəxş qiymətləndirilən polis əməkdaşı Tağızadə Atatürk Səlim oğlu ambulator müalicə üçün artıq evə buraxılıb.

Qeyd edək ki, sözügedən yarımstansiyadan Şuşanın yaşayış komplekslərinə də elektrik enerjisi verilməsi nəzərdə tutulur. Hazırda cari ilin sonunda tikintisi tamamlanacaq ilk yaşayış kompleksinə elektrik xətlərinin çəkilişi həyata keçirilr.

Beləliklə, “Şuşa” yarımstansiyası Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün böyük əhəmiyyət daşıyır. Bu enerji infrastrukturu istər Xankəndinin, istərsə də Şuşanın elektrik enerjisinə olan tələbatını qarşılayır, qırılmış əlaqənin bərpa olunmasına və elektrik xətlərinin daha səmərəli təşkilinə şərait yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Təqvim yada salır

# 110 yaşlı “Arşın mal alan”



*Nalədəndir ney kimi avazeyi*
*eşqim bülənd,*
*Nalə tərkin qılmazam*
*ney tək kəsilsəm bənd-bənd.*

Yəqin ki, bu misralar hər birinizə dərhal ölməz bəstəkar Üzeyir Hacıbəylinin “Arşın mal alan” tamaşasını xatırlatdı. Bu, əsərin qəhrəmanı Əsgərin səhnəyə giriş ariyasıdır.

1913-cü ildə yazılan “Arşın mal alan” Üzeyir Hacıbəylinin son operettası olub. Üzeyir bəy bu əsəri Sankt-Peterburqda konservatoriyada oxuyararkən qələmə alıb. Bəstəkar 1913-cü ilin yayında dostu və görkəmli aktyor Hüseynqulu Sarabskiyə ünvanladığı məktubunda bildirir ki, “Arşın mal alan” əsərini yazır: “Mənim bu qədər əlləşməyimin səbəbi odur ki, nəinki təkcə bir Bakı və ya Qafqaz, bəlkə hər bir yerdə və hər bir şəhərdə teatr verməyə imkanımız olsun. Ancaq bir qədər vaxt gözləmək və zəhmət çəkmək lazımdır. Bilirəm ki, mənim əsərim gələcəkdə böyük bir iş görəcəkdir”.

1913-cü il oktyabr ayının 25-də Bakıda mesenat Hacı Zeynalabdin Tağıyevin teatrında (indiki Azərbaycan Dövlət Musiqili Teatrı) “Arşın mal alan” operettasının təqdimatı keçirilib. İlk tamaşanın aktyorları H.Sarabski, Ə. Ağdamski , Ə. Hüseynzadə, H.Terequlov, H.Hüseynov, Gülsabah xanım, Olenskaya, rejissoru H.Sarabski, dirijoru M.Maqomayev olublar.

“Arşın mal alan” alqışlarla qarşılanıb. 1913-cü il tarixində nəşr olunan “Sədayi həqq” qəzeti xəbər verib: “Müsəlman bəstəkarı Üzeyir bəy Hacıbəylinin təzə operettası “Arşın mal alan” camaata çox xoş gəlib”.

Əsərin süjeti Qarabağın Şuşa şəhərinin həyatından alınmışdı. Əsər xalq həyatını əks etdirən epizodlardan ibarət idi.

Tanınmış müğənni Rəşid Behbudovun qızı Rəşidə xanım “Arşın mal Alan”-dakı Əsgər obrazının onun babasının həyatını əks etdirdiyini deyib:

Babam Məcid-bəy Behbudalı, qədimdə Behbudovlar soyu belə adlanırdı, qeyri-adi səsə malik, gözəl xalq mahnıları ifaçısı idi və artıq 30 yaşında peşəkar müğənni olub. Bundan öncə isə öz atasına kömək edərmiş: boxçasına ipək yığıb o vaxt qaldıqları Şuşanın küçələrini gəzər və “Arşın mal alan, arşın mal alan” deyərək yerli ədalı qızları gətirdiyi mala göz gəzdirməyə çağırarmış. Səciyyəvi boxçacı obrazı Üzeyir Hacıbəylinin yaddaşına elə həkk olunur ki, gələcəkdə bəstəkar onu “Arşın mal alan” operettasının süjetində istifadə edir...

Operettanın səhnədə oynanılmasından 110 il keçsə də, xalqın adət-ənənələrini canlandıran tamaşa yenə əvvəlki tək sevilir, tamaşaçı ona təkrar-təkrar baxmaqdan yorulmur.

***Zülfiyyə ZİYA***
***XQ***



# Bakıda UNESCO-nun subregional konfransı

**Azərbaycan Milli İncəsənət Muzeyində Mədəniyyət Nazirliyi və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin birgə təşkilatçılığı ilə “İpək Yolu Volqa-Xəzər Dəhlizi: Birinci İllik Subregional” konfransı keçirilir.**

UNESCO-nun ölkəmizdəki daimi nümayəndəsi Elman Abdullayev tədbirdə Azərbaycanın çox geniş mədəni irsə malik olduğunu dedi. Bildirdi ki, Böyük ipək yolu üzərindən maddi və qeyri-maddi irsin qorunması mövzusunda Mərkəzi Asiya ölkələri ilə tarixi əlaqələr qurulub. Ənənə bu gün də davam edir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva tarixi ipək yolunun Azərbaycan üçün vacib əhəmiyyət daşıdığını vurğuladı.

UNESCO üzrə Milli Komissiyanın ikinci katibi Emil Əhmədov Azərbaycanın ipək yolu üzərində keçirilən layihələri hər zaman dəstəklədiyini iftixarla qeyd etdi. O bildirdi ki, ermənilər son 30 ildə Azərbaycana aid mülki obyektləri, tarixi abidələri dağıtmış, milli-mədəni irsimizə qarşı genosid həyata keçirmişlər.

“İpək Yolu Volqa-Xəzər Dəhlizi: Birinci İllik Subregional” adlı konfransda ölkəmizlə yanaşı, Qazaxıstan, Türkmənistan, İngiltərə, Yaponiya, Rusiya Federasiyasının Tatarıstan Respublikası və İrandan olan nümayəndələr iştirak edirlər.

Konfransa qatılan ölkələrin rəsmi nümayəndələrindən müsahibələr aldıq.

London Universiteti Kollecinin professoru Tim Vilyams: – İlk dəfədir ki, Azərbaycana gəlirəm. Çox həyəcanlıyam. Xəzər dənizi regionu ətrafında mədəni irs və strateji inkişaf nailiyyətləri mövzusunda müzakirələrin aparılması hər birimiz üçün olduqca əhəmiyyətlidir. Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan və digər ölkələrdən olan tətqiqatçılar bu mövzuda daha yaxşı araşdırmalar etmək üçün yol xəritəsi işləyib hazırlayırlar. Qeyd edim ki, bu, həmçinin ayrı-ayrı layihələri əhatə edir.

Qazaxıstan Respublikası Milli Elmlər Akademiyasının akademiki, arxeologiya elmləri doktoru, professor Baytanayev Bauyrjan: – Əsas məqsədimiz mədəni irs mövzusunda meyarlar hazırlamaq, arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələrini UNESCO-ya təqdim etməkdir. Biz bu görüşdən sonra mühüm addımlar atmağı düşünürük. Bu mövzuda müəyyən meyarlar hazırladıqdan sonra həmin nümunələrin sıralanması işinə başlayacağıq. Bunlar hamısı Azərbaycanın, Rusiyanın, Qazaxıstanın, Türkmənistanın və ümumiyyətlə, Mərkəzi Asiya ölkələrinin mədəni irsidir. Baytanayev Bauyrjan tədbir haqqında da təəssüratlarından danışdı: – Tədbir çox gözəl təşkil olunub. Burada gənclər, müxtəlif təşkilatların əməkdaşları və ekspertlər fəal iştirak edirlər. Onlar da konfransda əldə olunan yaxşı nəticələrə görə gözəl əhval-ruhiyyədədirlər. Buna görə, bütün təşkilatçılara “Çox sağ ol” deyirik.

Konfransın təşkil olunmasının məqsədi “İpək Yolu Volqa-Xəzər Dəhlizi Transsərhəd Nominasiyası”na təqdim ediləcək mədəni irs obyektlərinin müəyyənləşdirilməsi, müvafiq sənədlərin dəhlizə daxil olan 5 ölkənin hökumət nümayəndələri, milli əlaqələndiriciləri, yerli və beynəlxalq ekspertlərlə müzakirə olunmasıdır.

Konfrans oktyabrın 25-dək davam edəcək.

***Fidan HÜQUQQIZI***
***XQ***

Ulu yurdun söz savaşı

# Qədim tarixdən Zəfər salnaməsinə

**Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında tarixi roman janrı dedikdə, ilk adıçəkilən nasirlərdən biri Yunus Oğuzdur. Türk tarixinin, eləcə də doğma Azərbaycan tarixinin önəmli, həlledici məqamlarının, hökmdarlarının, qəhrəmanlarının qələmin qüdrəti ilə XXI əsrdə yenidən “zühur etməsinə” nail olan yazıçının yaradıcılığının ana xətti vətənpərvərlik, azərbaycançılıq, türkçülükdür.**



Azərbaycanın yaxın tarixinin ən möhtəşəm hadisəsi olan 44 günlük Vətən müharibəsi də Yunus Oğuz qələmindən keçərək sanballı bədii örnəklər kimi ədəbi irsimizə daxil oldu. Vətən müharibəsi ilə bağlı Yunus Oğuzun qələmə aldığı ilk əsərlərindən biri Ali Baş Komandan İlham Əliyevə həsr etdiyi “Dövlət bizik” şeiri oldu. Yaradıcılığa poetik mətnlərlə başlayan Yunus Oğuzun bütün şeirlərində izlənən milli kökə bağlılıq, vətənpərvərlik bu şeirdə daha güclü bir vurğu ilə səslənir:

*Torpağımçün savaşaram*
*Addım-addım,*
*Əli yalın olsam belə,*
*Gözlərimi silah edib vuruşaram –*
*Dövlət mənəm!*

*Ağrıların çəkənəm,*
*Torpağını əkənəm,*
*Daş-divarın tikənəm –*
*Dövlət mənəm!*

*Bir qarış da yad torpaqda gözüm yox,*
*Bu torpağa düşmən ayaq basacaqsa,*
*Silahım var, Sözüm yox...*
*Dövlət mənəm! Dövlət sənsən! Dövlət biz!*

Qeyd etmək yerinə düşər ki, Yunus Oğuzun bu şeirinə Şahin Musaoğlu mahnı bəstələyib və həmin mahnını azərbaycanlı tenor, opera ifaçısı, Xalq artisti Samir Cəfərov ifa edib.

44 günlük müharibə ilə bağlı Yunus Oğuzun bədii yaradıcılığında təzahür edən növbəti nümunələr “Zəfər paradı” və “Ağdama qayıdış” esseləri oldu. “Zəfər paradı” essesi illərdən bəri xalq olaraq xəyalını qurduğumuz möhtəşəm bir hadisənin tərənnümünə həsr edilmişdir. Burada 44 günlük müharibənin məntiqi sonluğu kimi, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və rəşadətli Azərbaycan Ordusunun xalqımıza bəxş etdiyi möhtəşəm qələbə bayramının qüruru Yunus Oğuzun qələmindən süzülərək, sözə hopur: “Sənin hesabına parçalanmış ruhumuz birləşir. Qalib ruhumuz Zəfər Paradına çevrilib Qarabağı dolaşdı, bu gün Bakı küçələrində gəzir, hər evin, hər ürəyin sahibidir Zəfər Paradı”.

“Ağdama qayıdış”da yazıçı “...orada zaman dayanıb. Orada ruhlar dolaşır” kəlmələrinin enerjisi ilə işğalın yıxıcılığını, torpağın fəryadından doğan ağrını oxucuya ötürməyə nail olur. Essenin son cümlələri möhkəm inam yaradır: “Ağdamdan süd ətri gələcək, Ağdamda toy çadırları qurulacaq, körpə səsləri gələcək.Tələsməyin, lap az qalıb. Zamansa öz ahəngi ilə axıb gedəcək, daha donmayacaq”. – Bu ifadələr zəfərdən sonrakı Qarabağın, bütövləşən Azərbaycanın reallaşmaqda olan yeni obrazının müjdəsini çatdırır.

Yunus Oğuz 2022-ci ildə qələmə aldığı “Cığır” romanı ilə 44 günlük Vətən müharibəsinin bütöv bədii salnaməsini yaradıb. Hadisələrin 3 zaman kəsiyində təqdim edildiyi bu əsərdə biz yenidən yazıçının bir sıra romanlarının, o cümlədən müasir Azərbaycan tarixinin dönüş nöqtəsi olan 2016-cı ilin aprel döyüşlərindən bəhs edən “Ovçu” romanının qəhrəmanı Murad obrazı ilə qarşılaşırıq. Bu dəfə Yunus Oğuz bir sıra əsərlərində yaratdığı Murad obrazının tarixdəki əsas missiyasını tam şəkildə açıqlayır.

Şuşanın açarı sayılan cığırın son qoruyucusu olan Nəsrəddin Murad öz missiyasını yerinə yetirir və Şuşa azad olunur. Vətən müharibəsinin əsası 2016-cı il döyüşlərində qoyulduğu kimi, “Cığır” romanının da əsasını “Ovçu” romanı təşkil edir. Bu səbəbdən bu iki romanın dilogiya olduğu qənaətindəyik.




İnamla deyə bilərik ki, Yunus Oğuzun “Cığır” romanı Vətən müharibəsindən sonrakı dövr Azərbaycan ədəbiyyatının yeni mərhələsinin sanballı bədii nümunəsi, qələbəmizin mükəmməl bədii obrazını təqdim edən, ideoloji cəhətdən çox güclü olan bir əsərdir.

Bəli, Yunus Oğuzun yaradıcılığında Vətən müharibəsi, Zəfər salnaməsi fərqli ədəbi növ və janrlarda öz bədii həllini tapmışdır. Yazıçının əsərləri ədəbiyyatımızda Qarabağ mövzusunun tam fərqli rakursdan işıqlandırılmasının orijinal nümunəsidir.

***Elnarə QARAGÖZOVA,***
***AMEA Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru***

XQ-nin kitab rəfi

## Həqiqət xanımın sənət həqiqətləri

***Türkiyədə azərbaycanlı pianoçu, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Ərzurum Atatürk Universiteti Gözəl sənətlər fakültəsinin professoru Həqiqət Məhərrəmovanın 75 illiyinə həsr olunmuş “Pianoya sadiq bir ömür” adlı kitab işıq üzü görüb.***




Topluda Azərbaycan, Türkiyə, Rusiya, Moldova və digər ölkələrdən tanınmış elm və incəsənət xadimlərinin sənətkar haqqında məqalə və fikirləri yer alıb. Kitaba “Ön söz” yazmış Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı pianoçunun zəngin elmi ilə klassik musiqi sahəsindəki bacarıqlarını universitetin müvafiq sahəsinin inkişafında mühüm rol oynadığını bildirib. Gözəl sənətlər fakültəsinin dekanı Mustafa Bulat isə Həqiqət Məhərrəmovanı müasir sənət elmini dolğun şəkildə, ləyaqətlə tədris edən müəllim kimi xarakterizə edir, pianoçunun tədrisə yeni ruh və baxış gətirdiyini vurğulayır.

Kitabda Azərbaycandan Xalq artistlər Fərhad Bədəlbəyli, Aqşin Əlizadə, Xəyyam Mirzəzadə, Azər Rzayev, Rauf Atakişiyev, professorlar Rəna Məmmədova, Aida Tağızadə və digər tanınmış incəsənət adamlarının ürək sözləri və məqalələri də verilib. Nəşrdə musiqiçi xanımın qardaşı Xalq artisti Məbud Məhərrəmovun da fikirləri yer alıb. Həqiqət Məhərrəmovanın yaradıcılığının müxtəlif illərini əks etdirən fotolar, konsert və layihələrinin afişaları kitabı daha da rəngarəng edib.

## Cavad xanın oğlu Uğurlu xanın hekayəti

***Müzadil Zauroğlunun bu adda bədii-tarixi povesti MİMTA Yayımlarında nəşr olunub. Əsərdə Azərbaycan tarixinin ən müba riz hökmdarlarından olmuş, öz mücadiləsi uğrunda şəhadətə ucalmış Gəncə xanı Cavad xanın oğlu Uğurlu xanın həyat və mübarizə yolundan bəhs edilir.***

Müəllif öz əsərini arxiv materialları əsasında ərsəyə gətirib. Əsər onun yenidən təsis olunaraq çap edilən “Füyuzat” dərgisi üçün yazdığı eyniadlı silsilə məqalələrindən tərtib olunub. 23 ildən artıq uzun müddət ərzində nəhəng Çar imperiyasının istibdad zülmünə qarşı mübarizə aparan Uğurlu xanın bədii obrazını mənbələr işığında yarada bilib. Uğurlu xanın həyat hekayəsi qəhrəmanlıq dolu tariximizin indiyədək gizli saxlanılan ən şanlı səhifələrindən biridir! Xüsusən, gənc nəsildə vətənpərlik və mübarizlik ruhunun formalaşması baxımından əsərin böyük əhəmiyyəti var.

## Yazılan söz yadigardır




***Hüquqşünas-publisist Hacı Şəmsəddin Mənsuroğlunun ömür yolundan bəhs edən “Yazdım ki, unudulmasın” adlı avtobioqrafik kitabı “Apostrof-A” nəşriyyatında çapdan çıxıb.***

Həyat yollarında dəyişən zamanla savaşa önəm verən Şəmsəddin Mənsuroğlu Birinci Qarabağ müharibəsinin iştirakçı-komandiri, DİN-in istefada olan yüksək rütbəli zabiti, veteranı və şəhid atasıdır. O, hüquq mövzusunda 8 kitabın, habelə 3 publisistik nəşrin müəlifidir. 850 səhifəlik “Heydər Əliyev: Azərbaycan Respublikası hüquq-mühafizə orqanları” kitabı da onun zəhmətlə ərsəyə gətirdiyi nəşrlərdəndir.

Müəllifin bu kitabında Vətən sevgisi ilə bağlı esselər, hüquq sahəsinə aid akademik şərhlər yer alıb. “Dövlət səltənəti məmur qələminin ədalətində və əsgər qılıncının kəsərində qərar tutut”, – deyən Hacı Şəmsəddin Mənsuroğlunun 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Ordusunun qəhrəmanlıqlarını, Vətən uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış əsgərlərimizin əli ilə yazılan zəfər salnaməsini vəsf edən yazıları maraq doğurur. Onun şəxsi həyatının gerçək hekayələri də cəlbedicidir.

Kitabın rəyçisi Əməkdar jurnalist Əflatun Amaşovdur.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Molla Nəsrəddin”in Mingəçevir sərgüzəştləri

**Mingəçevir Dövlət Dram Teatrı yazıçı Xeyrəddin Qocanın “Zamanın ruzigarı” pyesinin motivləri əsasında “Molla Nəsrəddin” tamaşasını səhnələşdirib.**



Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin keşməkeşli həyatından, “Molla “Nəsrəddin” jurnalının nəşrinin çətinliklərindən bəhs edən pyesə rejissor Vüsal Mehrəliyev quruluş verib. Səhnə əsərinin quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulov, rejissor assistentləri İlahə Qasımova, Çiçək İsmayılzadə, rəqslərin quruluşçusu Eyvaz Əliyevdir. Tamaşaçılar Mirzə Cəlilin, Mirzə Ələkbər Sabirin, Əbdürrəhim bəy Haqvediyevin, Üzeyir Hacıbəylinin, Mirzə Fətəli Axundovun obrazlarını səhnədə bir arada görüncə dönə-dönə alqışlayıblar.

Rolları teatrın aktyorları Aydın Quliyev – Mirzə Cəlil, Vüsalə Əliyeva – Həmidə xanım, Paşa Salmanov – Mirzə Ələkbər Sabir, Şıxı Yaqubov – Əbdürrəhim bəy Haqverdiyev, Hüseyin Mustafayev – Kefli İskəndər, Qabil İbrahimli – Hacı Həsən, Asif Əhmədov – Vəli xan, Asim Məmmədov – Novruzəli oynayıblar.

Tamaşanın sonunda teatrın direktoru İntiqam Soltan, rejissor Vüsal Mehrəliyev, müəllif Xeyrəddin Qoca səhnəyə çıxaraq, yeni tamaşa üzərində birgə işdən danışıblar. Onlar əsərin Mirzə Cəlilin ölməz ruhuna ərməğan olduğunu bildiriblər.

***XQ***

# Rusiya–Ukrayna münaqişəsi: gərgin döyüşlər ara vermir

**Ukraynada vəziyyət gərgin olaraq qalır. Rusiyanın “xüsusi hərbi əməliyyat” adlandırdığı müharibə bütün şiddəti ilə davam edir. Hər iki tərəfin ciddi itkilərə məruz qaldıqları vurğulanır. Şiddətli döyüşlərin xüsusilə də Avdeyevka şəhəri uğrunda getdiyi bildirilir. Strateji əhəmiyyətli bu şəhər Donetskdən 13 kilometr şimalda, Kamenka çayının yuxarı axarında yerləşir. Xarici KİV şəhər uğrunda gedən döyüşlərdə hər iki tərəfin minlərlə hərbçi itirdiyini iddia edir. Bununla yanaşı, həm Rusiyanın, həm də Ukraynanın bir-birilərinin ərazilərinə raket və dron zərbələri də endirirlər.**



Avdeyevka hərbi administrasiyasının rəhbəri Vitali Barabaş “Azadlıq” radiosuna bildirib ki, Donetsk vilayətində Avdeevkaya gedən yolun Rusiya tərəfindən davamlı atəşə tutulması evakuasiya və humanitar yardımın şəhərə çatdırılmasını çətinləşdirir. Onun sözlərinə görə, şəhər həm gecə, həm də gündüz atəş altındadır: “Buna görə də bu, həm evakuasiyanı, həm də humanitar yardımın gətirilməsini xeyli çətinləşdirir. İstənilən logistika bir yoldan keçir. Təbii ki, düşmən onu kəsməyə çalışır”. Vitali Barabaş vurğulayıb ki, təkcə atəşə məruz qalma risklərinə görə deyil, insanların oranı tərk etmək istəməməsinə görə son üç gündə təxliyə olmayıb. Oktyabrın 23-ü səhər saatlarına olan məlumata görə, şəhərdə 1601 nəfər qalıb. O qeyd edib ki, son günlər rütubətin artması səbəbindən Rusiya zirehli texnikadan az istifadə etməyə başlayıb.

Şimal qonşumuzun KİV-i isə yazır ki, Rusiyanın hücum qrupları Avdeyevkanın şimalında Ukraynanın müdafiəsini yarıb, dəmir yolu boyunca hücumu davam etdirir. Xəbər verilir ki, Rusiya ordusunun bölmələri Avdeyevka ərazisində təzyiqləri davam etdirir, “düşmən hücumu pozmağa və qoşunlarımızı geri çəkməyə cəhd edir”. Bununla belə, qeyd olunur ki, hazırda irəliləyiş bir az dalana dirənib, amma Ukrayna da irəliləyə bilmir. Rusiya mətbuatı iddia edir ki, Avdeyevkanın şimal və cənub cinahlarından ikinci hücumdan sonra Rusiya qoşunları Berdiçev şəhərinə doğru irəliləməyə və yeni mövqelərdə möhkəmlənməyə nail olublar. Eyni zamanda, Ukrayna əməliyyat fasiləsindən istifadə edərək, Pesok istiqamətində əks-hücuma keçib. Rusiya mətbuatı bildirir ki, ukraynalılar istədiklərinə nail ola bilməyiblər.

Ukrayna tərəfi iddia edir ki, Rusiya Avdeyevkada çox sayda hərbçi və hərbi texnika itirib. Müharibə Tədqiqat İnstitutu da bildirib ki, Rusiya əhəmiyyətli itkiləri nəzərə almır və Avdeyevkaya yeni qüvvələr köçürməyə davam edir. Analitiklər qeyd edirlər ki, cəbhədən mexanikləşdirilmiş hücumlarla bağlı davamlı problemlərə və oktyabrın 19-20-də yeni hücum cəhdinin uğursuzluğa düçar olmasına baxmayaraq, Rusiya qoşunları Avdeyevka istiqamətinə əlavə qüvvələr yeridir. Bir neçə rus hərbi müxbiri də oktyabrın 22-də Avdeyevka istiqamətində ciddi dəyişiklik olmadığını iddia edir. Rusiya qoşunlarının uğursuz və əhəmiyyətli itkilərlə nəticələnən böyük bir hücumdan sonra yenidən fasilə verəcəyi ehtimal olunur. Rusiyalı hərbi müxbirlər iddia edirlər ki, Ukrayna qüvvələri “gözlənilməz şəkildə” Pesok istiqamətində (Donetskdən 8 kilometr cənub-qərbdə yerləşir-red.) əks-hücuma keçərək, rus qoşunlarını ərazidəki mövqelərdən sıxışdırıb çıxarıblar.

Digər hərbi müxbir isə bildirir ki, Ukrayna qoşunlarının Peskov və Opıtnı (Avdeyevkadan 4 kilometr cənubda yerləşir-red.) bölgələrində irəliləməsi ilə bağlı bəyanatlar həqiqətə uyğun deyil. Oktyabrın 21-də yayılan geolokasiya görüntüləri göstərir ki, rus qoşunları bu yaxınlarda Pervomayskidən cənub-şərqdə (Avdeyevkadan 11 kilometr cənub-qərbdə) kiçik irəliləyiş əldə ediblər. Rusiyalı “hərbi müxbir” iddia edir ki, rus qoşunları Avdeyevkada terrikon (tullantı yığını, zibillik, kömür və digər faydalı qazıntı yataqlarının yeraltı hasilatı zamanı çıxarılan tullantı süxurlarından ibarət süni təpə, müxtəlif sənaye sahələrinin tullantılarının və bərk yanacağın yanması zamanı yaranan bənd-red.) ərazisini tam ələ keçirməyiblər və bu ərazi hazırda “boz zona” olaraq qalır. Hərbi müxbir Rusiyanın Avdeyevka istiqamətindəki hücum əməliyyatları üçün “mövqe dalanına” gətirib çıxara biləcək çətinliklərin olduğunu vurğulayıb. Bundan əlavə, Rusiya mənbələri əvvəllər Ukraynanın müdafiə istehkamlarının Avdeyevka ətrafında Rusiyanın irəliləyişləri üçün əhəmiyyətli problem yaratdığını bildirmişdilər. Ekspertlər qeyd edirlər ki, bu problemlər 2023-cü ilin iyununda davam edən Ukrayna əks-hücumunun ilk həftələrində Ukraynanın cənubunda Ukrayna qüvvələrinin üzləşdiyi problemlərlə çox oxşardır.

Ukraynadan verilən məlumatlara görə, cəbhədə mövqe döyüşləri gedir və ciddi üstünlük barədə danışmaq hələ tezdir. Hər iki tərəf sonadək vuruşacaqlarını bildirir. Amma bu da bir faktdır ki, döyüş sursatları baxımından hər iki tərəfin də müəyyən çətinlikləri var. Ukrayna baş naziri Denis Şmıqal bildirib ki, dünyada və Ukraynada “böyük sursat çatışmazlığı” var, ona görə də ölkədə istehsal prosesini yaratmaq lazımdır. “Financial Times” qəzetinə müsahibəsində cənab Şmıqal etiraf edib ki, Ukraynada böyük sursat çatışmazlığı var. Doğrudur, o, bu çatışmazlığın bütün dünyada hiss oldunduğunu da vurğulayıb. Onun sözlərinə görə, Ukrayna hökuməti bu il dron istehsalının kəskin artımından dərs çıxarır. Bununla belə, əsas komponentlərin və xammalın qlobal qıtlığını nəzərə alsaq, mərmi, artilleriya və hava hücumundan müdafiə sistemlərinin tədarükü üçün sənayenin inkişafı pilotsuz təyyarələrə nisbətən daha çətin məsələdir. Rəsmilərdən biri mediaya deyib ki, Ukrayna qlobal “barıt qıtlığı” da daxil olmaqla, mərmi istehsalını sürətlə dəyişdirə bilməz.

Bir sözlə, Rusiya–Ukrayna münaqişəsində “hava tutqun” olaraq qalır. Rusiya Kupyanskdan Verbovoya doğru irəliləyir, Avdeyevkaya isə şiddətli hücumlar edir. Ukraynalı hərbçilər bildirirlər ki, 24 saat ərzində cəbhədə 90-dan çox hərbi toqquşma baş verib. Kupyansk istiqamətində Sinkovka və İvanovka ərazilərində 15-dən çox hücum dəf edilib. “Penta” Tətbiqi Siyasi Araşdırmalar Mərkəzinin icraçı direktoru Aleksandr Leonov qeyd edir ki, yaxın gələcəkdə təkcə Avdeyevka istiqamətində deyil, həm Ukraynadan, həm də Rusiyadan hərbi əməliyyatlar davam etdiriləcək: “Ukrayna Tokmakı tuta bilsə, bu vəziyyətə kifayət qədər ciddi təsir göstərə bilər. Tokmakdan Ukrayna öz vasitələri ilə Azov dənizinin sahillərinə çata biləcək. Və bu, Rusiya üçün logistikanı mümkün qədər çətinləşdirəcək”. A.Leonovun sözlərinə görə, döyüşlərin bu qış davam edəcəyi ehtimalı daha yüksəkdir. Bununla belə, mütəxəssislər ehtimal edirlər ki, 2024-cü ilin yayına qədər cəbhədəki vəziyyət kəskin şəkildə dəyişməyəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Hüseyn Cavid Naxçıvanda yad edilib

**Dünən görkəmli şair-dramaturq Hüseyn Cavidin doğum günündə dahi sənətkarın xatirəsi dünyaya göz açdığı Naxçıvan şəhərində ehtiramla yad edildi. Mərasim iştirakçıları Hüseyn Cavidin Xatirə Kompleksini ziyarət edərək ədibin məqbərəsi önünə gül dəstələri düzdülər.**



Cəlil Məmmədquluzadə adına Ədəbiyyat Muzeyində keçirilən xatirə məclisində Naxçıvan MR Mədəniyyət Nazirliyinin aparat rəhbəri Piri Nağıyev Hüseyn Cavidin Azərbaycan ədəbiyyatının və teatrının inkişafındakı misilsiz xidmətlərindən danışıb. O, görkəmli söz ustasının bənzərsiz yaradıcılığı və mübariz şəxsiyyəti ilə möhtəşəm bir yazar və dönməz istiqlal aşiqi olduğunu bildirib.

Mərasimdə Hüseyn Cavid irsinin ölkəmizdə yüksər dəyər qazanması, onun xatirəsinin həmişə əziz tutulması qeyd edilib. Sovet dövründə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Hüseyn Cavidin 100 illik yubileyinin böyük təntənə ilə keçirilməsi və cənazəsinin uzaq Sibirdən Azərbaycana gətirilməsi haqqında qərar qəbul edilməsi minnətdarlıqla yada saloınıb. Bildirilib ki, tarixi qərarlarla görkəmli şairin Bakı şəhərində və doğma Naxçıvanda ev muzeyi yaradılıb. 1996-ci ilin oktyabrında Ümummilli liderin təşəbbüsü və şəxsən iştirakı ilə Hüseyn Cavidin Naxçıvanda əzəmətli məqbərəsi ucaldılıb. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ədibin 120,135,140 illik yubileyləri dövlət səviyyəsində qeyd olunub. Hüseyn Cavid Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflər sırasına daxil edilib.

Məclisdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Yadigar Hüseyn Cavidin həyat və yaradıcılığı barədə geniş söhbət açıb. Mərasimdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı aktyorları Hüseyn Cavidin əsərlərindən parçaları səsləndiriblər.

***Səbuhi HƏSƏNOV***

**Naxçıvan**

# Nazir Arif Babayevi ziyarət etdi

**Azərbaycanın mədəniyyət naziri Adil Kərimli dünən görkəmli muğam ustadı, Xalq artisti Arif Babayevi evində ziyarət edib. Bu haqda Mədəniyyət Nazirliyi məlumat yayıb.**



Bildirilib ki, nazir Arif Babayevin əlamətdar yubileyinin – anadan olmasının 85 illiyinin müxtəlif tədbirlərlə qeyd edildiyini deyib, Prezident İlham Əliyevin 21 fevral 2023-cü il tarixli sərəncamı ilə onun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”na layiq görülməsinin sənətkarın fəaliyyətinə göstərilən diqqətin təzahürü olduğunu vurğulayıb. Sonra dövlət təltifi xanəndəyə təqdim edilib.

Arif Babayev sənətinə verilən yüksək qiymətə və Azərbaycan muğamının inkişafına göstərdikləri diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

***XQ***

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: --iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Tel- (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 manat (iki min manat) məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı - “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı
Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, onda notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, icra probasiya şöbəsi və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya “ASAN Xidmət” Mərkəzlərindən 2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiqləyən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə aid son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;
- iddiaçının maddi - texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir ).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 17 noyabr 2023-cü il saat 11.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 27 noyabr 2023-cü il 11.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 28 noyabr 2023-cü il saat 11.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

## Aşağıdakı kafedralar üzrə kafedra müdiri və professor-müəllim vəzifələrinə

## MÜSABİQƏ ELAN EDİR

**TİBBİ-BİOLOJİ ELMLƏR KAFEDRASI**
Mülki müdafiə fənni üzrə baş müəllim – 1 ştat
Biokimya fənni üzrə müəllim – 1 ştat
Normal fiziologiya fənni üzrə müəllim – 2 ştat

**BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN NƏZƏRİYYƏSİ VƏ METODİKASI KAFEDRASI**
Adaptiv bədən tərbiyəsi fənni üzrə dosent – 1 ştat
Hərbi sıra hazırlığı, topoqrafiya fənni üzrə baş müəllim – 3 ştat
Bədən tərbiyəsi və idmanın tarixi fənni üzrə baş müəllim – 1 ştat

**İDMAN MENECMENTİ VƏ KOMMUNİKASİYA KAFEDRASI**
Kafedra müdiri – 1 ştat
Ali riyaziyyat fənni üzrə baş müəllim – 1 ştat
Ali riyaziyyat fənni üzrə müəllim – 1 ştat
Ekonometrika fənni üzrə baş müəllim – 1 ştat
İdman iqtisadiyyatı fənni üzrə baş müəllim – 1 ştat
İdman jurnalistikası fənni üzrə baş müəllim – 1 ştat

**İDMANIN OYUN NÖVLƏRİ KAFEDRASI**
Basketbol idman növünün tədrisi üzrə professor – 1 ştat
Futbol idman növünün tədrisi üzrə müəllim – 2 ştat
Şahmat idman növünün tədrisi üzrə müəllim – 1 ştat

**İDMANIN TƏKMÜBARİZLİK NÖVLƏRİ KAFEDRASI**
Sərbəst güləş idman növünün tədrisi üzrə dosent – 1 ştat
Yunan-Roma güləşi idman növünün tədrisi üzrə dosent – 1 ştat
Boks idman növünün tədrisi üzrə baş müəllim – 2 ştat
Boks idman növünün tədrisi üzrə müəllim – 2 ştat
Cüdo idman növünün tədrisi üzrə müəllim – 3 ştat
Əlbəyaxa döyüş idman növünün tədrisi üzrə müəllim – 1 ştat
Karate idman növünün tədrisi üzrə müəllim – 2 ştat
Taekvondo idman növünün tədrisi üzrə müəllim – 1 ştat

**KÜTLƏVİ-SAĞLAMLIQ İDMAN NÖVLƏRİ KAFEDRASI**
Atletika idman növünün tədrisi üzrə müəllim – 2 ştat

**SOSİAL ELMLƏR KAFEDRASI**
Kafedra müdiri – 1 ştat
İngilis dili fənni üzrə baş müəllim – 1 ştat
İngilis dili fənni üzrə müəllim – 1 ştat
Multikulturalizm fənni üzrə baş müəllim – 1 ştat
Azərbaycan dili və nitq mədəniyyəti fənni üzrə müəllim – 1 ştat
Xarici dildə işgüzar və akademik kommunukasiya fənni üzrə müəllim – 1 ştat

**FİZİKİ HAZIRLIQ KAFEDRASI**
Kafedra müdiri – 1 ştat

**İDMAN TİBBİ VƏ REABİLİTASİYA KAFEDRASI**
Kafedra müdiri – 1 ştat

Sənədlər müsabiqə elan edildiyi gündən bir ay ərzində təqdim oluna bilər.
Məlumat üçün telefon: 012-564-33-75

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 233 (30349) 25 oktyabr 2023-cü il, çərşənbə

## İdman xəbərləri

### Cüdoçumuzun "Böyük dəbilqə" bürüncü

**Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Böyük dəbilqə" turnirində Azərbaycanın qadın cüdoçusu 3-cü yeri tutub.**



Təmsilçimiz Leyla Əliyeva (48 kq) bürünc medal uğrunda görüşdə italiyalı Françeska Milanini məğlub edib.

Qeyd edək ki, yarışda Azərbaycanı 14 cüdoçu təmsil edir. Turnir oktyabrın 26-dək davam edəcək.

### Bakıda güləş seminarı

***Azərbaycan Güləş Federasiyasının (AGF) təşkil etdiyi ümumrespublika seminarının növbəti tədbiri Bakıda keçirilib.***



140-a yaxın məşqçinin qatıldığı seminarın nəzəri hissəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ASAPES) baş müəllimi Mehman Nəcəfov, yunan-Roma güləşi üzrə U-20 milli komandanın böyük məşqçisi Nurəddin Rəcəbov, sərbəst güləş üzrə U-17 milli komandanın məşqçisi Vahid Məmmədov, Hakimlər Kollegiyasının sədri Qərib Əliyev öz sahələri üzrə önəmli məlumatları paytaxt məşqçilərinin diqqətinə çatdırıblar.

Seminarın praktiki hissəsində Vahid Məmmədov, yunan-Roma güləşi üzrə U-20 milli komandanın məşqçisi Emin Əhmədov və I-S kateqoriyalı hakim Sədi Quliyev müxtəlif güləş elementlərinin icrasını xalça üzərində əyani surətdə nümayiş etdiriblər. Sonra iştirakçılara AGF-nin sertifikatları verilib.

### 3 futbol klubu cərimələnib

***Premyer Liqanın X turunda qeydə alınan neqativ hallarla bağlı AFFA İntizam Komitəsi 3 kluba cərimə tətbiq edib.***

Belə ki, "Turan Tovuz" 1500, "Səbail" 800, "Zirə" isə 700 manat cərimə ödəməli olacaq. Tovuz təmsilçisi "Qarabağ"la matçda 5 futbolçusu sarı vərəqə aldığı üçün 700, oyun başa çatdıqdan sonra meydana kənar şəxslər daxil olduqlarına görə isə 800 manat cərimə edilib.

"Səbail"–"Neftçi" qarşılaşmasından sonra meydana kənar şəxs girdiyindən "Səbail" 800 manat ziyana düşüb.

"Kəpəz"lə görüşündə 5 futbolçusu sarı vərəqə aldığı "Zirə" 700 manatından keçməli olacaq.

***Leyla SABİRQIZI***
***XQ***

## Mədəniyyət

### Müslüm Maqomayevin "Mavi əbədiyyət"i



**Həştərxan Dövlət Opera və Balet Teatrının kiçik zalında "Müslüm Maqomayevin xatirəsinə" adlı konsert təşkil olunub. Anşlaqla keçən gecədə tamaşaçılar Müslüm Maqomayevin repertuarından unudulmaz "hitləri" dinləyiblər. Onların arasında italyan kompozisiyaları da olub.**

Konsertdə 1979-cu ildə "Azərbaycanfilm"də lentə alınan və Müslüm Maqomayev üçün təkcə aktyorluq deyil, həm də bəstəkarlıq debütünə çevrilmiş "Arası kəsilmiş serenada" filmindən Robert Rojdestvenskinin şeirinə yazılmış "Əgər dünyada məhəbbət varsa" mahnısı da ifa olunub.

Bundan başqa, məşhur ifaçının ölməzlik qazanan daha bir çox kompozisiya və musiqiçi, dostu Gennadi Kozlovskinin şeirinə yazdığı əfsanəvi "Mavi əbədiyyət" əsəri ifa olunub.

Proqramın müəllifi Həştərxan Opera və Balet Teatrının rejissoru Yuliya Skriçenkovadır. Konsertin aparıcısı onun özü olub.

***R.SƏADƏT***
***XQ***

## Sənət inciləri

### "Qreko qəhvəxanası"



**Azərbaycan rəssamlıq sənətində silinməz iz qoyan Tahir Salahovun yaradıcılığının ən gözəl nümunələrindən biri də "Qreko qəhvəxanası"dır.**

Realizm üslubunda hazırlanmış bu əsər 2002-ci ildə ərsəyə gəlmişdir. Rəsm kətan üzərində və əsasən, yağlı boyalardan istifadə olunmaqla çəkilmişdir.

Tabloda kitab oxuyan qız tələbələrlə yanaşı, aynanın əks tərəfindən rəssamın öz portretini görürük.

Əsərin koloritində sarı, qırmızı rənglərin kontrastı ilk baxışdan gözə çarpsa da, qara, boz və ağ rənglərin qarşılıqlı vəhdəti də diqqətdən yayınmır.

Hazırda bu dəyərli tablo Tahir Salahovun ev-muzeyində saxlanılır və sənətsevərlərə nümayiş edilir.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

*✓ Neftçala rayonunun Xolqaraqaşlı kəndində Xəlilova Səmayə Həsən qızının adına verilmiş 3.1799 hektar torpaq sahəsinin AN063164 nömrəli planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.*

## Elm

### Alimlərimiz Stenford Universitetinin reytinq siyahısında

**İnformasiya Texnologiyaları İnstitutunda son 20 il ərzində süni intellekt, təbii dilin emalı, kiberfiziki sistemlər, kibertəhlükəsizlik, dərin təlim, böyük verilənlərin analitikası, intellektual e-dövlətin formalaşdırılması, əşyaların interneti, bulud texnologiyaları və s. istiqamətlər üzrə aparılan tədqiqatlar dünyanın aparıcı elm mərkəzləri tərəfindən yüksək qiymətləndirilir.**

STANFORD UNIVERSITY

Bu barədə İnformasiya Texnologiyaları İnstitutundan məlumat verilib. Qeyd olunub ki, elmin müxtəlif istiqamətləri üzrə dünyanın ən nüfuzlu alimlərinin reytinq siyahısı 2019-cu ildən başlayaraq hər il "Scopus" bazasının məlumatları əsasında Stenford Universiteti tərəfindən hazırlanır. Bu reytinq siyahısı məqalələrin və istinadların sayı, alimlərin Hirş indeksi və bir çox digər elmmetrik meyarları özündə birləşdirən kompozit göstərici əsasında hazırlanır. Həmin göstəriciyə görə, hər bir elm sahəsi üzrə alimlərin reytinq siyahısı hazırlanır, sonra bu siyahının ilk 2 faizinə daxil olan alimlər seçilirlər.

2020–2022-ci illərdə süni intellekt elm sahəsi üzrə Azərbaycanı bu reytinq siyahısında akademik Rasim Əliquliyev və AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev təmsil ediblər. Xatırladaq ki, bu alimlər 2023-cü ildə də süni intellekt üzrə dünyanın ən nüfuzlu alimlərinin reytinq siyahısına seçiliblər. Bu illər ərzində Stenford Universitetinin reytinq siyahısına süni intellekt üzrə Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycan alimlərinin adları daxil edilib.

Qeyd etmək lazımdır ki, ölkəmizdən müxtəlif elm sahələri üzrə bu reytinq siyahısına 2020-ci ildə 2, 2021-ci ildə 8, 2022-ci ildə 14, 2023-cü ildə 13 alimin adı daxil edilib.

***Anar ƏLİ***
***XQ***

## Sağlamlıq

### Çaşır kökü – qurdu tökür

**Çoxillik ot bitkisi çaşır hər il yaz mövsümündə dağları, yamacları bəzəyir. Düzənlik və aşağı dağ qurşaqlarında, gipsli, gilli yerlərdə və quru dərələrdə bitir. Çaşır Azərbaycanda, əsasən, Quba, Qusar və Naxçıvanda geniş yayılıb.**



Ondan bir çox xəstəliklərin müalicəsində istifadə edirlər. Bu məqsədlə çaşırın köklərindən istifadə olunur. Belə ki, köklərinin suda dəmlənməsi yaxşı qurdqovucudur. İmmun sistemini gücləndirir, uzun müddətli öskürək zamanı çox faydalıdır. Tərkibi antioksidantlarla zəngin olduğundan xərçəng xəstəliyinin müalicə və profilaktikasında da çox istifadə edirlər. Bitki metobalizmi sürətləndirir, bağırsaqların yaxşı işləməsini tənzimləyir. Çaşırın ən əhəmiyyətli faydası orqanizmdəki şəkər səviyyəsinin tarazlığını qorumaqdır.

Amma hamilə və süd verən qadınlar çaşırdan istifadə etməməlidirlər. Tərkibindəki bəzi turşuların dölə və südəmər körpəyə mənfi təsir göstərəcəyi deyilir.

### Mandarinin qabığı da...

**Yüksək miqdarda C vitamini tərkibli naringi, immunitet sistemini gücləndirir və orqanizmi infeksiyalardan qoruyur. Xüsusilə, qış aylarında mandarin yemək insanı soyuqdəymə, qrip və digər infeksion xəstəliklərə yoluxmaqdan mühafizə edir. Meyvənin qabıqları da çox faydalıdır.**



Təmiz yuyulmuş mandarin qabıqlarını qaynadılmış qaynar suya əlavə edib 5–10 dəqiqə gözləyir, dəmləndikdən sonra içirlər. Bu dəmləmənin faydaları çoxdur.

Naringi qabığından hazırlanmış çay stresi azaldır, xolesterolu balanslaşdırır, xərçəng riskini minimuma endirir, arıqlamağa kömək edir, dərini hamar və yumşaq edir, mədə problemlərində faydalıdır, bədəndən toksinləri çıxarır, sümükləri gücləndirir.

Bu çay, eyni zamanda, göz sağlamlığını da qoruyur.

***Z.HÜSEYNLİ***
***XQ***

### 30 minlik ilan kolleksiyası

**Miçiqan Universitetinin Zoologiya Muzeyində hər biri maye ilə doldurulmuş, içində müxtəlif ilan nümunələri olan şüşə bankalar saxlanılır.**



Bu bankalar sürünənlər və suda-quruda yaşayanlar kolleksiyasının yalnız bir hissəsidir. Bu nümunələr ABŞ-da tətqiqat institutu tərəfindən qorunub saxlanılan ən böyük kolleksiyada qorunur.

Qeyd edək ki, ötən ay muzeyə su və qarter ilanları, meşə salamanderləri və digər növlər də gətirilib. Onlar evtanizasiya edilib və 75 faizli etanol məhlula yerləşdirilib. Muzeydə, ümumiyyətlə, 30 min ilan nümunəsi olduğu deyilir.

***FİDAN***
***XQ***

## Hava

### Bölgələrdə yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, oktyabrın 25-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**



Əsasən səhər və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 14-17°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 3-8°, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

### ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Talət Məcidova əzizi

ELEONORA MƏCİDOVANIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2716
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00